DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 02 (388) / FEVRAL 2024-CÜ İL



Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq - biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səylər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

**Prezident İlham Əliyev**
Andiçmə mərasimindəki nitqindən
14 fevral 2024-cü il

# S.A.SALAHLIYA AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ SƏDRİ VƏZİFƏSİNİN MÜVƏQQƏTİ İCRASININ HƏVALƏ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Adil oğlu Salahlıya həvalə edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 fevral 2024-cü il

## DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Fevralın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri vəzifəsini müvəqqəti icra edən Səyyad Salahlı ABŞ-nin İsa Məsihin Axırzaman Müqəddəsləri Kilsəsinin təmsilçisi, Stirlinq Fondunun icraçı direktoru Edvard Rounun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

S.Salahlı xalqımızın tolerantlıq və multikulturalizm ənənələrindən, Prezident cənab İlham Əliyevin dinlərarası harmoniya və dini konfessiyalara münasibətində bərabərlik prinsipinə verdiyi önəmdən danışıb. Qeyd edib ki, 37-si qeyri-islam təmayüllü olmaqla dövlət qeydiyyatına alınan 994 dini icmanın fəaliyyətinin dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər görülür. Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməklə yanaşı, dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyalar diqqətdə saxlanılır.

Komitə rəsmisi Prezident İlham Əliyev, eləcə də birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ermənistan tərəfindən vandalizmə məruz qalmış tarixi-dini abidələr, məscidlərlə yanaşı, kilsə və məbədlərin bərpa edilməsini xüsusi diqqətdə saxladığını vurğulayıb. Eyni zamanda Stirlinq Fondunun işğaldan azad edilmiş ərazilərimizdə minatəmizləmə əməliyyatlarında yaxından iştirakını və dəstəyini yüksək qiymətləndirib.

ABŞ-nin İsa Məsihin Axırzaman Müqəddəsləri Kilsəsinin nümayəndəsi, Stirlinq Fondunun icraçı direktoru Edvard Ro ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın çox böyük dəyər olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, qonağa Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çap edilmiş kitablar hədiyyə edilib.

***

Fevralın 26-da isə Səyyad Salahlı Türkiyə Diyanət İşləri İdarəsinin Həcc və ümrə xidmətlərinin baş direktoru Rəmzi Bircan ilə görüşüb.

Yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə münasibətlərindən bəhs edən S.Salahlı qonağa ölkəmizdəki dövlət-din münasibətləri, milli-mənəvi və multikultural dəyərlərə verilən önəm, nümunəvi tolerantlıq mühiti və əməkdaşlıq münasibətləri, o cümlədən bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə məlumat verib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə Diyanət İşləri İdarəsinin Həcc və ümrə xidmətlərinin baş direktoru Rəmzi Bircan qardaş ölkələr arasında olan sıx münasibətlərin təcrübə mübadiləsi baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.



Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

***

Daha bir görüş fevralın 27-də baş tutub. DQİDK sədri vəzifəsini müvəqqəti icra edən Səyyad Salahlı Səudiyyə Ərəbistanının (SƏK) Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiə ilə görüşüb.

İki ölkə arasında dostluq-qardaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini bildirən Səyyad Salahlı Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan ərazi bütövlüyünün qorunması və bərpası məsələlərində göstərdiyi mənəvi, siyasi dəstəyi xüsusi olaraq vurğulayıb.



Daha sonra naziri ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, Dövlət Komitəsinin fəaliyyəti barədə məlumatlandıran S.Salahlı Ulu Öndər Heydər Əliyevin mənəvi-siyasi irsinin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasətin dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin, o cümlədən xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəldiyini bildirib. Dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması və təmiri işində də fərq qoyulmadan bütün konfessiyaların diqqətdə saxlanıldığını qeyd edən Komitə rəsmisi 30 ilə yaxın işğaldan sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərlə azad edilən ərazilərimizdə də bərpa-quruculuq işlərinin aparıldığını nəzərə çatdırıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən ermənilərin dağıdaraq yararsız hala saldığı, təhqirə məruz qoyduğu məscidlərin, o cümlədən kilsə və məbədlərin bərpa edildiyini deyib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Həcc və Ümrə naziri Taufiq bin Fauzən Əl Rabiə Azərbaycan-SƏK arasındakı əlaqələrin bütün sahələrdə olduğu kimi humanitar və dini, mənəvi sahələrdə də inkişafının əhəmiyyətini qeyd edib. İşğaldan azad edilmiş ərazilərdə dini ibadətgahların bərpası istiqamətində aparılan işləri yüksək qiymətləndirib.

Tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsinin aparıldığı görüşün sonunda qonağa DQİDK-nın sifarişi ilə nəşr edilən kitablar hədiyyə edilib.

***

Fevralın 19-da DQİDK sədrinin müavini Sahib Nağıyev Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilakt ilə görüşüb.

Sədr müavini Sahib Nağıyev Azərbaycanda dövlət tərəfindən dini sahəyə verilən xüsusi diqqət və dəstəkdən bəhs edib. Bildirib ki, müxtəlif dinlərin nümayəndələrinə qayğı göstərmək, onların problemlərini həll etmək dövlət-din siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Sədr müavini vurğulayıb ki, Azərbaycanda dini müxtəlifliyin və dinlərarası dialoqun möhkəmlənməsi üçün mühüm addımlar atılır. Müvafiq qanunvericilik çərçivəsində digər icmalar kimi pravoslav xristian icmasının fəaliyyəti dəstəklənir, icma Azərbaycanın ictimai-mədəni həyatında fəal iştirak edir, birgəyaşayış mühiti və dinlərarası harmoniyanın inkişafına töhfəsini verir.

Rus Pravoslav Kilsəsinin Azərbaycan və Bakı Yeparxiyası rəhbərinin vəzifəsini müvəqqəti icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilakt Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi fevralın 7-də keçirilən seçkidə qazandığı qələbə münasibətilə təbrik edib, dövlət başçısı tərəfindən pravoslav icmasına göstərilən diqqət və qayğıya görə məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# XAÇMAZDA VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ DİNLƏNİLİB

Fevralın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri səlahiyyətlərini icra edən Mübariz Qurbanlı Xaçmazda vətəndaşları qəbul edib.

Qəbuldan öncə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, önünə çiçəklər qoyularaq xatirəsi ehtiramla yad olunub.

Qəbulda vətəndaşların İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, dini maarifləndirmə işinin genişləndirilməsi, dini icmaların fəaliyyəti və digər məzmunlu müraciətləri dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarından olan vətəndaşlar iştirak ediblər.



# DÖVLƏT KOMİTƏSİ: AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MƏSCİDLƏRƏ DİN XADİMLƏRİNİN TƏYİNATI KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRİN QAYIDIŞINA PARALEL OLARAQ APARILACAQ

İşğaldan azad edilmiş Ağdam, Zəngilan, Şuşa, Hadrut, Suqovuşan və Laçında yeni məscidlərin təməli qoyulub. Paralel olaraq tarixi-dini abidələrimizin və məscidlərimizin bərpası davam etdirilir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib.

Sədr müavini dini abidələrimizin bərpasının dövlətin diqqət mərkəzində olduğunu bildirib. O qeyd edib ki, həmin məscidlərə din xadimlərinin təyinatı onlar istifadəyə verildikdən sonra keçmiş məcburi köçkünlərin geri qayıdışına paralel olaraq zərurət yarandıqca aparılacaq.

G.İsmayılov ötən il ilk dəfə Şuşa şəhərindəki Yuxarı Gövhər Ağa məscidinə din xadiminin təyin olunduğunu da xatırladıb.




# DÖVLƏT KOMİTƏSİ RƏSMİSİ: XARİCDƏ DİNİ TƏHSİL ALMIŞ 19 NƏFƏR AZƏRBAYCANDA DİN XADİMİ TƏYİN OLUNUB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini Qurumlarla İş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin AZƏRTAC-a müsahibəsi:

***- Hazırda məscidlərdə vakant yerlər varmı? Qadın dini ayinlərin icraçısı üçün vakant yerlər müsahibəyə çıxarılacaqmı? Məscidlərdə vakant vəzifələrin tutulması üçün növbəti müsahibənin nə vaxt keçirilməsi nəzərdə tutulub?***

- "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa 2022-ci ildə edilmiş son dəyişikliklərə əsasən İslam dininə aid ibadət yerlərinə din xadimlərinin təyinatı məsələsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) səlahiyyətinə verilib. Eyni zamanda, həmin dəyişikliklərdən irəli gələn vəzifələri həyata keçirmək məqsədilə Dövlət Komitəsinin Kollegiyası tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" (Qayda) təsdiq edilib.

İbadət yerlərinə din xadimlərinin təyinatı və vəzifəsindən azad olması ilə bağlı ilk və əhatəli hüquqi sənəd olan Qaydada din xadiminin təhsili, müsahibə və attestasiyanın keçirilməsinin şərtləri, ibadət yerlərindəki din xadimlərinin vəzifələri və onlar arasındakı əmək bölgüsü müəyyənləşdirilib və ilk dəfə olaraq ibadət yerlərində qadın dini ayinlərin icraçısı vəzifəsi təsis olunub. Eləcə də Qaydada dini fəaliyyət sahəsində subyektiv yanaşmaların və boşluqların aradan qaldırılması, o cümlədən şəffaflığın təminatı üçün bəndlər əksini tapıb.

Dövlət Komitəsi tərəfindən 2022-2023-cü illərdə məscidlərdə 102 vakant vəzifənin tutulması üçün 3 müsahibə keçirilib. Müsahibəyə maraq yüksək olub, vakant vəzifələri tutmaq üçün 720 nəfər sənəd verib. Həmin müsahibələrdən 277 nəfər uğurla keçib ki, onlardan 35-i qadın olmaqla, 231 nəfəri 202 məsciddə müxtəlif vəzifələrə təyin edilib. Göründüyü kimi, vakant vəzifələr 102 olsa da, təyinatlar 202 məscidi əhatə edib. Əlavə təyinatlar ehtiyat kadr siyahısı hesabına həyata keçirilib. Qaydaya əsasən müsahibədən keçmiş, lakin təyinat almamış şəxslər ehtiyat kadr siyahısına salınır və onların 2 il ərzində imtahan vermədən məscidlərdəki vakant vəzifələrə təyin olunmaq hüquqları var. Komitə tərəfindən mütəmadi olaraq həmin şəxslərə məscidlərdə yeni yaranmış vakant vəzifələr barədə məlumat verilir, müxtəlif vəzifələr təklif edilir. Razılıqları olduğu təqdirdə, onların təyinatları verilir. Bu prosedur nəticəsində yeni yaranmış 130-dan artıq vakant vəzifəyə təyinat həyata keçirilib. Bu gün ehtiyat kadrlar siyahısında 46 nəfər var.

Hazırda 2023-cü ilin dekabr ayının 13-də elan edilmiş müsahibənin imtahan mərhələsinə hazırlıq işləri davam edir. 1-i qadın dini ayinlərin icraçısı olmaqla, 7 vakant vəzifə müsahibəyə çıxarılıb. Müsahibədə iştirak etmək üçün 185 nəfər sənəd verib. Onlardan 58-i qadın dini ayinlərin icraçısı vəzifəsini tutmaq istəyənlərdir.

Eyni zamanda qeyd etməliyik ki, Komitə ilk dəfə olaraq yanvar ayının 30-da İslam dininə aid ibadət evlərində işləyən din xadimlərinin attestasiyasını elan edib. Mart ayının 4 və 6-sı tarixlərində da fəaliyyət dövrünün 5 ili tamam olmuş 64 din xadimi attestasiya ediləcək.

***- Azad edilmiş ərazilərdəki məscidlərə din xadimləri təyinatı olub?***

- Bildiyiniz kimi, Prezident cənab İlham Əliyevin göstərişi ilə işğaldan azad olunmuş ərazilərdə sürətli tikinti-quruculuq işləri aparılır. Həmin ərazilərdəki dini ibadət yerlərinin, eləcə də abidələrin tikintisi və bərpasına xüsusi diqqət yetirilir. Dövlət başçısı Şuşa, Zəngilan və Laçın şəhəri, həmçinin Hadrut və Suqovuşan qəsəbələrində yeni məscidlərin təməlqoyma mərasimlərində iştirak edib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Şuşa və Ağdam şəhərlərindəki ibadət evlərinin bərpası həyata keçirilir. Onlardan ikisinin – Şuşa şəhəri "Yuxarı Gövhər Ağa" və "Saatlı" məscidlərinin təmir-bərpası artıq başa çatıb, Prezident və ailəsinin iştirakı ilə ötən ilin may ayının 10-da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi günündə açılışı olub.

Ötən il sentyabr ayında Mirabdulah Həsənli Şuşa şəhəri "Yuxarı Gövhər Ağa" məscidinə imam təyin olunub. Hazırda orada fəaliyyətini davam etdirir. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdəki ibadət evlərinə din xadimi təyinatının məskunlaşmaya və ibadət evlərinin fəaliyyətə başlamasına paralel aparılması nəzərdə tutulub.

***- Ölkəmizdə xaricdə dini təhsil almış din xadimi varmı? Və ya din xadimləri üçün xaricdə təhsil proqramı varmı, yoxdursa, gələcəkdə belə bir proqram nəzərdə tutulub?***

- Ali və orta ixtisas dini təhsili olan, o cümlədən xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları din xadimi ola bilərlər. Dövlət Komitəsinin təşkil etdiyi müsahibələrdə onlarla xaricdə dini təhsil almış şəxs iştirak edib. Onlardan 19 nəfəri din xadimi təyin olunub.

Eyni zamanda, qeyd etməliyik ki, bu gün din sahəsi üzrə kadr hazırlığı önəmli məsələlərdəndir. Təsadüfi deyil ki, dövlət başçısının sərəncamı ilə 2018-ci ildə Azərbaycan İlahiyyat İnstitutu və Nazirlər Kabinetinin qərarı ilə 2023-cü ildə Bakı İlahiyyat Kolleci yaradılıb. Fəaliyyəti dövründə İnstitut Türkiyə, Rusiya, Gürcüstan, Qazaxıstan, Malayziya və digər ölkələrin müvafiq təhsil müəssisələri ilə əlaqələrini genişləndirib. Türkiyə və Qazaxıstanın ali dini təhsil müəssisələri ilə tələbə mübadiləsi proqramları da həyata keçirilib. Gələcəkdə bu istiqamətdə işlərin daha da genişləndirilməsi planlaşdırılır.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN İCLASI KEÇİRİLİB

Fevralın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın növbəti iclası keçirilib.

İclasda çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov din sahəsində dövlət siyasətinin əsas prioritetləri, habelə hədəfləri barədə məlumat verib. Müasir dövrün çağırışları ilə xalqımızın milli-dini kimliyinin mahiyyətindən irəli gələn tələblərin uzlaşdırılması, tolerant mühit və dinlərarası həmrəyliyin təbliği, dini fanatizmə və ekstremizmə qarşı mübarizə, o cümlədən milli təhlükəsizliyimizin başlıca tərkib hissəsi olan dini təhlükəsizliyin təmin olunması istiqamətlərində həyata keçirilən maarifləndirmə prosesində DQİDK yanında İctimai Şura üzvlərinin iştirakının əhəmiyyətini diqqətə çatdırıb.



İctimai Şuranın sədri Sevinc Alızadə çıxış edərək, Şuranın qarşısında duran məqsədlər və 2024-cü ildə görülməli işlər haqqında məlumat verib. S.Əlizadə bildirib ki, həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətlər Şuraya müzakirə üçün təqdim edilən "İctimai Şuranın 2024-2026-cı illər üçün Fəaliyyət Planı üzrə Tədbirlər Planı"nda öz əksini tapıb.

Daha sonra "Tədbirlər Planı" geniş müzakirəyə çıxarılıb. Çıxış edən İctimai Şura üzvləri sənəddə əksini tapan fəaliyyət istiqamətləri ilə bağlı təkliflərini səsləndiriblər.

Sonda S.Heydərov İctimai Şura üzvlərinin rəy və təkliflərinə diqqətlə yanaşılacağını vurğulayıb, sıx əməkdaşlıq şəraitində uğurlu fəaliyyətin təmin ediləcəyinə əminliyini ifadə edib.

# DQİDK-NIN ŞÖBƏ MÜDİRİ: "BÜTÜN DİN XADİMLƏRİ MƏRHƏLƏLİ ŞƏKİLDƏ ATTESTASİYADAN KEÇİRİLƏCƏKLƏR"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə TNS.AZ-ın suallarını cavablandırıb.

Müsahibəni təqdim edirik:

**- İslam dininə aid ibadət yerləri və ziyarətgahlara təyin olunmuş din xadimlərinin attestasiyası elan edilib. Bu, hansı zərurətdən irəli gəlib?**

- "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara təyin olunmuş din xadimlərinin hər beş ildən bir attestasiya edilməsi nəzərdə tutulub. Eyni zamanda "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"nda (Qayda) attestasiyanın keçirilməsinin təşkili, eləcə də Attestasiya Komissiyasının üzvləri və imtahan edilən din xadimlərinin qiymətləndirilməsi ilə bağlı bəndlərə yer verilib. Qeyd edilənləri nəzərə alaraq bildirməliyik ki, attestasiyanın keçirilməsi hər şeydən öncə qanunun tələbidir.

Ümumiyyətlə, hər sahədə olduğu kimi, dini sahədə də kadrların peşə bacarıqları və biliklərinin qiymətləndirilməsi, eyni zamanda inkişaf etdirilməsi vacib məsələlərdəndir. Attestasiyalar da problemlərin öyrənilməsi və aradan qaldırılması, eləcə də kadr hazırlığı prosesi istiqamətinin müəyyənləşdirilməsində vacib alətlərdəndir. Təcrübə göstərir ki, din xadiminin bacarıq və biliklərinin zəif olduğu yerlərdə dinlə bağlı neqativ tendensiyalar daha çox yayılır. Belə hallardan xüsusilə də, radikal dini qruplar yararlanmağa çalışırlar.

Qeyd edilənlərə əsasən, fəaliyyət dövrünün beş ili tamam olmuş, ali və orta ixtisas dini təhsili olan din xadimlərinin mütəmadi olaraq attestasiyadan keçirilməsi nəzərdə tutulub.

**- Proses hansı formada həyata keçiriləcək?**

- Qaydaya əsasən, attestasiyanın keçirilməsi məqsədi ilə Komitədə Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri, habelə mütəxəssislər daxil olmaqla 9 nəfərdən ibarət Attestasiya Komissiyası yaradılmalı, həmçinin attestasiyadan keçəcək din xadimlərinə imtahanın başlanılmasına ən geci 1 (bir) ay qalmış bu barədə məlumat verilməlidir.

Artıq komitə sədri tərəfindən Attestasiya Komissiyasının tərkibi təsdiq olunub. Attestasiya olunacaq din xadimlərinə müvafiq məlumat verilir. Onların imtahanı mart ayının 4, 5 və 6-da Qafqaz Müsəlmanları İdarəsində keçiriləcək.

**- Attestasiyadan keçməyənlərlə bağlı hansı qərar veriləcək?**

- Öncədən vurğuladığımız kimi, təyinatından beş il keçmiş, ali və orta ixtisas dini təhsili olan bütün din xadimləri mərhələli şəkildə attestasiyadan keçiriləcəklər. Attestasiya olunacağı ilə bağlı məlumatlandırılmış din xadiminin imtahanda iştirakı vacibdir. Qaydaya görə, din xadimi üzrlü səbəb olmadan və ya üzrlü səbəbdən Attestasiya Komissiyasının iclasına gəlmədikdə attestasiyadan keçirilməmiş hesab edilir. Həmin din xadimi komissiyanın növbəti iclasında attestasiyadan keçməlidir. Qaydanın 8.1.2-ci bəndinə əsasən, din xadimi attestasiyadan keçmədikdə, habelə ardıcıl olaraq 2 (iki) dəfə attestasiyada üzrlü səbəb olmadan iştirak etmədikdə vəzifəsindən azad olunacaq.

**- Attestasiyadan keçənlərin vəzifəsində yüksəlmə və aldıqları məvacibdə artım olacaq?**

- Attestasiyada iştirak edən din xadimlərinə komissiya tərəfindən "tutduğu vəzifəyə uyğun gəlir", "komissiyanın tövsiyələrini yerinə yetirsə, 1 (bir) ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir" və "tutduğu vəzifəyə uyğun gəlmir" qiymətlərindən biri verilə bilər. Qaydada attestasiyadan keçən din xadimləri üçün vəzifədə yüksəlmə nəzərdə tutulmayıb. Vəzifədə yüksəlmə yalnız müsahibə yolu ilə mümkündür.

Eyni zamanda, bildirməliyik ki, din xadimlərinə əmək haqqı verilmir. Onlara Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən maddi dəstək verilir. Attestasiyalar din xadimlərinə maddi dəstəyin verilməsinə təsir göstərməyəcək.

# BU İL YENİ YARADILMIŞ BAKI İLAHİYYAT KOLLECİNƏ QƏBUL APARILACAQ



**Ötən ilin sonunda Bakı İlahiyyat Kollecinin yaradılması ilə bağlı qərar verilib. Hazırda tədris ocağının fəaliyyətinin təşkili istiqamətində hansı işlər həyata keçirilir, Bakı İlahiyyat Kolleci bina ilə təmin olunubmu?**

Bununla bağlı sualı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova TNS.AZ-ın suallarını cavablandırıb.

Şöbə müdirinin sözlərinə görə, hazırda kollecin dövlət qeydiyyatına alınması istiqamətində işlər görülür: "Bildiyiniz kimi, dini fəaliyyətin təşkili sahəsində ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə Nazirlər Kabineti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutu yanında Bakı İlahiyyat Kollecinin yaradılması haqqında 8 dekabr 2023-cü ildə qərar qəbul edib. Həmin qərara əsasən, İqtisadiyyat Nazirliyi dövlət qeydiyyatına alındığı gündən kollecin inzibati bina ilə təmin edilməsi məsələsinin həlli barədə təkliflərini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir. Hazırda kollecin dövlət qeydiyyatına alınması istiqamətində işlər görülür".

Bu il kollecə qəbulun aparılıb-aparılmayacağına gəlincə, qurum rəsmisi bildirib ki, təhsil ocağına bu il qəbul nəzərdə tutulub: "Kollecə bu il qəbul aparılması nəzərdə tutulub. Qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcək. Bakı İlahiyyat Kollecində həm dünyəvi, həm də dini fənlər tədris olunacaq. Kollecdə qiyabi təhsil olmayacaq. Dövlət təhsil müəssisəsi olduğu üçün ödənişli təhsildən söhbət gedə bilməz. Eyni zamanda, burada hər hansısa məzhəbə əsaslanan dini təhsil verilməyəcək. Azərbaycan İlahiyyat İnstitutunda olduğu kimi, Bakı İlahiyyat Kollecində də Azərbaycandakı bütün dini reallıqlar, o cümlədən məzhəb reallıqları nəzərə alınaraq tədris həyata keçiriləcək. Həmçinin, əlavə edim ki, qızlar və oğlanlar birlikdə təhsil alacaqlar".

Elnarə Kərimova onu da vurğulayıb ki, Bakı İlahiyyat Kollecinin filialının yaradılması nəzərdə tutulmur: "Bu məsələyə kollecin fəaliyyətinin növbəti mərhələlərində baxıla bilər".

# AYASOFYANI ƏHATƏ EDƏN MİNARƏLƏRDƏN BİRİNİN TƏCİLİ BƏRPASINA BAŞLANILIB

Yunanıstanın "Orthodox Times" nəşri xəbər verir ki, İstanbulda Ayasofyanı əhatə edən dörd minarədən birində struktur çatlar aşkar edilib. Mövcud vəziyyət minarədə bərpa işlərinin aparılmasını zəruri edir.

Ayasofyanın Bərpası üzrə Elmi Komitənin üzvü Dr. Hasan Fırat Diker açıqlamasında bildirib ki, II Bəyazid minarəsində müəyyən edilmiş əhəmiyyətli struktur zəifliklərə görə, ilkin növbədə konkret həmin tikilinin təmirinə diqqət yönəldilmişdir. Bu strateji yanaşma problemlərin seysmik aktivlik, yoxsa tikinti materiallarının korroziyası ilə bağlı olub olmadığını müəyyən etmək baxımından hərtərəfli qiymətləndirmə aparmağa imkan verir. Zərərin miqyası müəyyənləşdirildikdən sonra hər bir minarənin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla bərpa işləri müvafiq qaydada davam etdiriləcək.

Bərpa prosesi zamanı ziyarətçilərin və işçilərin təhlükəsizliyini təmin etmək məqsədilə üçün minarənin ətrafında müvəqqəti polad konstruksiya qurulub. Diker bildirib ki, bu müdaxilə ziyarətçilərin təhlükəsizliyinə təhlükə yarada biləcək materialların hər hansı potensial hərəkətinin qarşısını almaq məqsədi daşıyır. Həmçinin vurğulayıb ki, konstruksiyanın quraşdırılması bərpa prosesində ilk addım olsa da, əsas məqsəd təkcə minarələrdə deyil, həm də binanın əsas strukturunda, o cümlədən onun eksteryerində və günbəzlərində olan konstruktiv çatışmazlıqları aradan qaldırmaqdır.

Türkiyə Vəqflər Baş Müdirliyi də sosial mediada Ayasofya məscidinin II Bəyazid minarəsində müntəzəm yoxlamalar zamanı əhəmiyyətli çat aşkarlandığını təsdiqləyən açıqlama yayıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ BAKI ŞƏHƏRİ DAĞ YƏHUDİLƏRİ DİNİ İCMASINDA OLUBLAR

Fevralın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Bakı şəhəri Dağ yəhudiləri dini icmasını ziyarət edib, dini qurumun fəaliyyəti ilə yaxından tanış olublar.

Görüşdə dini icmanın sədri Milix Yevdayev, DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə və sədr müavini Fərid Şahbazlı, üzvləri Məhsəti Hüseynova, Aqil Camal, Büllur Məmmədova və Səbuhi Abdullayev, eyni zamanda Komitənin İctimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Vüsalə Hüseynova iştirak edib.



Şuranın sədri Sevinc Alızadə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə dini sahəyə göstərilən diqqət və qayğının önəmi barədə danışıb. Ölkəmizdə dini-mənəvi və tolerant dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlərin həyata keçirildiyini bildirib.

Milix Yevdayev Azərbaycanda Dağ yəhudilərinin tarixi haqqında məlumat verərək müstəqilliyimizin bərpa olunmasından sonra ölkəmizdə yaşayan dini konfessiya nümayəndələrinin, o cümlədən yəhudilərin həyatında yeni mərhələnin başladığını, onların hüquq və azadlıqlarının qorunmasına, mədəniyyətinin inkişafına dövlət səviyyəsində dəstək verilməsinin qeyri-islam dini icmaları, o cümlədən yəhudi icmaları qarşısında yeni imkanlar açdığını vurğulayıb.

Sonda sinaqoqda ibadət üçün yaradılan şəraitlə tanış olan Şura üzvləri belə görüşlərin əhəmiyyətini qeyd ediblər.

# RƏHMƏT VƏ BƏRƏKƏT AYI

Hər il müsəlmanlar "on bir ayın sultanı" Ramazanı səbirsizliklə gözləyir, onun gəlişini böyük sevinc və coşqu ilə qarşılayırlar. Artıq İslam dünyasında mərhəmət və bərəkət rəmzi olan Ramazanın ab-havası hiss edilir. Ölkəmizdə də Ramazana hazırlıq gedir və insanlar bu fəzilətli ayın gəlişini böyük həyəcanla gözləyirlər.




Orucun vacib buyurulmasında məqsəd mənən zənginləşmək, səbirli, dözümlü və mərhəmətli olmağı öyrənməkdir. Oruclu şəxs Allaha xoş getməyən və günah əməllərdən özünü qorumalıdır. Qurani-Kərimdə buyurulur: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsi¬niz!... » (əl-Bəqərə, 183).

Orucluq vaxtı Allahın lütfü ilə insanlara müəyyən fürsətlər verilir. Şeytanın əli qandallanır, möminlərin günahları bağışlanır, Cənnətin qapıları açılır, Cəhənnəminki isə bağlanır. Məhəmməd peyğəmbər (s) buyurmuşdur: «Ramazan ayı gəldikdə Cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar və şeytanlar zəncirlənər» (Səhihi-Buxari).

Orucun müsəlmanlara vacib edilməsində bir neçə hikmət var. Birincisi, oruc Allaha ibadət, Onun əmrlərini yerinə yetirmək, haramdan çəkinmək mahiyyəti daşıyır. Məhəmməd peyğəmbər (s) Allah-Təalanın oruc haqqında belə buyurduğunu bildirir: «Oruc istisna olmaqla, digər ibadətlər Adəm övladınındır. Oruc mənimdir, onun mükafatını mən verəcəyəm. Çünki Adəm övladı oruc tutduqda mənə görə yeməyi, içməyi və şəhvət hissini tərk edir» (Səhihi-Buxari).

İnsanın Allahın həqiqi bəndəsi olmasını dərk etməsi və bunu yaşaması, Onun bütün əmr və hökmlərinə tabe olması Uca Yaradana ibadətin başlıca məqsədlərindəndir. Buna görə də oruc saf niyyətlə və sırf Allaha ibadət məqsədilə tutulmalıdır. Oruc ibadətini arıqlamaq və insanlara oruclu olduğunu göstərmək niyyətilə yerinə yetirmək şəriətə ziddir.

Orucun müsəlmanlara vacib buyurulmasında digər hikmət nəfsin tərbiyəsi, müsəlmanlarda səbir və dözümlülüyün möhkəmləndirilməsidir. Oruc müsəlmanlara əzmkar və nəfsə hakim olmağı, istəklərin əsirinə çevrilməməyi öyrədir.

Oruc insana sevgi, mərhəmət və qayğı hissləri aşılayır. O, insanın özünü yeyib-içməkdən məhrum etməsi məqsədilə vacib buyurulmayıb, imkansızlara köməklik göstərmək və onların yaşadıqları hissləri duymaq bu ibadətin vacib şərtlərindəndir. İmkanlı şəxs müvəqqəti də olsa, kasıb insanın keçirdiyi hissləri yaşayır, aclığın nə olduğunu anlayır. Oruclu insan oruc tutmaqla yanaşı, təqva mərtəbəsinə yüksəlir, daim Allaha zikr edir, Onun əmrlərini yerinə yetirir və qadağalarından çəkinir.

Orucun insan sağlamlığına da bir sıra faydaları var. Mütəxəssislər il boyu dincəlmədən çalışan həzm orqanlarına istirahət verilməsinin vacibliyini vurğulayaraq, orucun ürək, damar və şəkər xəstəliklərinə müsbət təsir göstərdiyini bildirirlər. Bu, Məhəmməd peyğəmbərin (s) orucun faydası ilə bağlı hədisində də təsdiqlənir: «Oruc tutun ki, sağlam olasınız» (Səhihi-Buxari).

Müsəlmanlar Allah-Təalanın tövsiyələrini yerinə yetirərək bu ibadətin verdiyi fəzilətlərdən səmərəli bəhrələnməli, Allaha daha çox dua etməli, imkansız insanlara əl tutmalı, günahlardan təmizlənməli, mənən zənginləşməli və paklaşmalıdır.

Allah-Təala oruc və dualarınızı qəbul etsin!

# AZƏRBAYCANDA RAMAZAN

İslam dünyasının ayrılmaz tərkib hissəsi olan Azərbaycanda Ramazan bayramı tarixən böyük sevinc və təmtəraqla qeyd edilmişdir. Ölkəmizdə yaşayan xalqların ortaq dəyərinə çevrilən Ramazan ayında müsəlmanla qeyri-müsəlman arasındakı fərq sanki aradan qalxır. Hətta buna bariz örnək kimi, ölkəmizdə çar Rusiyasının hakimiyyəti dövründə xristian və yəhudilərə məxsus yeməkxanaların Ramazanda bağlanması faktını göstərə bilərik.

1918-ci ildə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından sonra dini dəyərlərə xüsusi diqqət yetirilmişdir. Çar Rusiyasının hakimiyyəti zamanı dini bayramlar ümumxalq bayramları kimi qeyd edilirdisə, Cümhuriyyət dövründə Ramazan və Qurbana dövlət bayramları statusu verilmişdir.

1920-ci ildə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsindən sonra başqa dinlərlə yanaşı, İslama qarşı da repressiya dalğası başlamışdır. Ölkəmizin minlərlə ziyalısı, o cümlədən din xadimi repressiya qurbanı olmuş, İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan edilmişdi. Lakin bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, imanlı insanlarımız inanclarını qoruyub saxlamağı bacarmışlar. Onlar gizli də olsa, Ramazan süfrələri açmış, sahur və iftar verərək öz dini ayinlərini yerinə yetirmişlər.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra İslam dininə, onun ibadət və ayinlərinə münasibət də dəyişmişdir. Orucluq bayramı Milli Məclisin qəbul etdiyi 27 oktyabr 1992-ci il tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən, ölkəmizdə dövlət səviyyəsində yenidən qeyd olunmağa başlamışdır.

Tarixinə, milli və dini ənənələrinə həmişə sadiq qalan xalqımız artıq neçə ildir ki, bu bayramı yüksək səviyyədə qeyd edir. Hər il Ramazan bayramı münasibətilə ölkə başçısı İlham Əliyevin Azərbaycan xalqını təbrik etməsi, müsəlman dövlətlərinin ölkəmizdəki diplomatik korpuslarının nümayəndələri ilə görüşməsi, iftar süfrələrində iştirak etməsi, bu bayrama verilən yüksək qiymətdir.

"On bir ayın sultanı" ilə bağlı cəmiyyətimizdə bir sıra adət-ənənə formalaşmışdır. Məscidlərdə, məhəllələrdə və digər yerlərdə iftar süfrələrinin açılması, qohum-əqrəbanın, dost-tanışın bayram günlərində bir-birinin evinə qonaq getməsi, ağsaqqal və ağbirçəklərin ziyarət edilməsi, bir yerə toplaşaraq əhya gecələrinin keçirilməsi, bayram sovqatının paylanılması və s. bu müqəddəs ayla bağlı ən qədim adətlərimizdəndir. İnsanların bayram günü yeni və səliqəli paltar geyinərək məscidlərə getməsi, bayramlaşması ulularımızın yadigarıdır.

Son dövrlər orucluqla bağlı müxtəlif xeyriyyə tədbirlərinin keçirilməsi, bayram günlərində uşaqlar və qocalar evlərinin ziyarət edilməsi, iftar süfrələrinin açılması kimi humanist addımlar ənənə halını almışdır.

Bayram günlərində qəbirləri ziyarət etmək, dualar oxumaq, ehsan süfrələri açmaq və s. kimi adət-ənənələr milli dəyərlərdə dini xüsusiyyətlərin təzahürüdür.

Orucluqla bağlı başqa bir adət Ramazan ayının son 10 günündə - əhya gecələrində oruc tutanların sayının artmasıdır. Qədr gecəsinin məhz o günlərdə olduğuna inanıldığı üçün bütün ayı deyil, yalnız son 10 gündə oruc tutmağın daha çox savab qazanıldığına inanılır. Hesab edilir ki, məhz əhya günlərində oruc tutmaq vacibdir.

Ramazan ayında ölkəmizdə keçirilən tədbirlərdən biri də müqabilədir (Quran xətmləri və qarşılıqlı Quran oxunması). Dini rəvayətlərə görə, Həzrət Cəbrail (ə) hər il Ramazanda Həzrət Məhəmməd peyğəmbərlə (s) görüşər, bir-birinə Quran oxuyarmışlar. Müqabilə ənənəsi də bunun davamı kimi dəyərləndirilə bilər. Eyni zamanda, Ramazan ayı boyunca dünyasını dəyişmiş yaxınlarımızın ruhuna Quran xətm etmək kimi adətimiz də vardır.

**"Cəmiyyət və Din"**



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*



## Babayev Əmirxan Mirilham oğlu

*Dözdü hər zillətə, dözdü hər şeyə,*
*"Dünyada mənim də haqqım var", - deyə*
*Kütləni xalq edən müqaviləyə*
*Qanıyla qolunu çəkdi şəhidlər.*

Mərhum şair Bəxtiyar Vahabzadənin şeirində deyildiyi kimi, şəhidlərimiz Zəfər tariximizə imzalarını qanı ilə atdılar. Elə bir zirvəyə yüksəldilər ki, bu dünyaya yenidən gəlsələr belə şəhidlik arzulayacaqlar. O zirvə ki, həm kədərimizə, həm nisgilimizə, həm də qürur və fəxr yerimizə çevrildi. Ən yüksək zirvəyə ucalanlardan biri də Babayev Əmirxan Mirilham oğludur. Əmirxan 1998-ci il noyabrın 28-də Bakı şəhərinin Yeni Suraxanı qəsəbəsində dünyaya göz açıb. 2005-ci ildə Bakı şəhər Suraxanı rayonu 89 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib, 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. Əmirxan 2017-ci ilin yanvarında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Suraxanı Rayon İdarəsi tərəfindən ordu sıralarına çağırılıb. O, həqiqi hərbi xidmətinə Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində başlayıb. Daha sonra xidmətinə Füzuli rayonunda düşmənlə üzbəüz postda davam edib. 2018-ci ilin iyulunda hərbi xidmətini uğurla başa vuran Əmirxan bir müddət sonra mühafizəçi kimi işləməyə başlayıb.

2020-ci ilin sentyabrın 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyat keçirilərkən SHXÇDX-nın Suraxanı Rayon İdarəsi tərəfindən Əmirxan da təlimlərə çağırılıb. Bir neçə gün təlimlərdə iştirak etdikdən sonra isə 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan ilk gündən Füzuli istiqamətindən döyüşlərə qoşulub. Füzuli, Cəbrayıl və Hadrut istiqamətində gedən döyüşlərin fəal iştirakçısı olan Əmirxan dəfələrlə özünü təhlükəyə ataraq, döyüş anında atəş altında qalan yaralı yoldaşlarını qorxmadan, igidcəsinə xilas edib. Daim düşmənin hədəfində olan qəhrəmanımız oktyabrın 18-də səhər saatlarında Hadrut istiqamətində açıq döyüşdə snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Şəhid əsgər Babayev Əmirxan boya-başa çatdığı Yeni Suraxanı qəsəbəsində dəfn edilib.

Şəhidimiz subay idi, ailədə iki qardaş, bir bacı olublar.

Cəsurluğu, şücaəti və qorxmazlığı ilə seçilən əsgər Babayev Əmirxan Mirilham oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Babayev Nihad Akif oğlu

Şanlı qələbəni bizə yaşadanlardan biri də şəhid Babayev Nihad Akif oğludur. O, 1991-ci il avqustun 30-da Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 1998-ci ildə Fazil Hökməliyev adına Günəşli kənd ümumi orta məktəbin 1-ci sinfinə gedən Nihad 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 2009-cu ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) yüksək nəticə ilə daxil olub. 2013-cü ildə AAHM-i bitirib "leytenant" rütbəsi alaraq Xüsusi Təyinatlı Qüvvələrdə təlim kursuna başlayıb. Kursu uğurla başa vuran qəhrəmanımız 2014-cü ildə Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinə xidmətə göndərilib. Daha sonra Türkiyədə snayper təlimlərində iştirak edərək yüksək nəticə əldə edib, ardınca Gürcüstanda dağa dırmanma üzrə xüsusi kurs keçib. Xüsusi təyinatlı qrup komandiri olan Nihad Babayev peşəkar kəşfiyyatçı kimi erməni, ingilis və rus dillərində sərbəst danışırdı. O, 2016-cı ildə Türkiyədə hərbi ixtisaslaşdırma üzrə təhsil alıb və ölkədə 50 zabitin keçə bildiyi təlimi müvəffəqiyyətlə keçib. 2018-ci ildə Vətənə qayıdıb, Əlahiddə Ümumqoşun Ordusunda bölük komandiri vəzifəsində xidmətinə davam edib. Əfsanəvi qəhrəmanımızın ilk geniş hərbi əməliyyatı 2018-ci ildə olub. Qeyd edək ki, şərti adı "Günnüt əməliyyatı" olan bu döyüşlər nəticəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Qaraqaya dağı da daxil olmaqla 11 min hektarlıq ərazini işğaldan azad edib. Nihad bu döyüşlərdə erməni mayorunun maşınını məhv etməklə əməliyyatın itkisiz və uğurla başa çatmasında önəmli rol oynayıb. 2020-ci ildə "kapitan" hərbi rütbəsi alan Nihad Babayev həm də Naxçıvan Muxtar Respublikasında fəxri qarovul dəstəsinin rəisi olub.

Vətən müharibəsində gərgin döyüşlərin getdiyi bir vaxtda Nihad Maddi Texniki Təminat rəhbəri olduğu üçün komandanlıq tərəfindən onun hərbi əməliyyatlara qatılmasına icazə verilməsə də, çoxsaylı müraciətlərindən sonra istəyinə nail olub. Bundan sonra oktyabrın 3-də Naxçıvandan göndərilən qrupun tərkibinə Nihad Babayevin də adı salınıb. O, Füzuli, Cəbrayıl və Xocavənd uğrunda gedən döyüşlərdə iştirak edib. Rəhbəri olduğu XTQ qrupu ilə Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi istiqamətində düşmənin 60-dan çox canlı qüvvəsini bir həmlə ilə itkisiz məhv etməsi Nihadı müharibənin əfsanəvi qəhrəmanlarından birinə çevirib. Yüksək fiziki və hərbi hazırlığı ona döyüşlərdə düşməni əlbəyaxa məhv etməyə də imkan verirdi. Bütün bunlar isə düşmən tərəfi qorxuya salmışdı. Oktyabrın sonlarında Füzuli rayonunun Yuxarı Veysəlli kəndi istiqamətində növbəti strateji əhəmiyyətli yüksəklik uğrunda gedən gərgin döyüşlərdə isə o, sonuncu dəfə qəhrəman kimi fərqlənə bilir.

Nihadın döyüşdə yaralanan hərbçi yoldaşı Kərim Əliyev söyləyir ki, qızğın döyüş zamanı ilk o yaralanıb. Daha sonra isə komandiri ona yaralandığını deyərək ondan özünü qorumasını istəyib. Bundan sonra Nihad nərilti çəkərək irəli hücuma keçib və rəhbərlik etdiyi qrupdan xeyli irəlidə təkbaşına döyüşüb. Təxminən 10 dəqiqə döyüşdükdən sonra snayper tərəfindən vurularaq şəhid olub. Qəhrəman şəhidimiz doğulduğu Günəşli kəndində torpağa tapşırılıb.

Şəhidimiz subay idi. Onun iki qardaşı, bir bacısı var.

Xidməti ərzində "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülən kapitan Babayev Nihad Akif oğlu ölümündən sonra ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Balacayev Qərib Nəsib oğlu

Şəhid Balacayev Qərib Nəsib oğlu 1997-ci il dekabrın 25-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində dünyaya gəlib. Əslən Ağdam rayonunun Mərzili kəndindən olan Qəribin ailəsi daha sonra Beyləqan rayonunun Təzəkənd kəndində məskunlaşırlar. O, 2005-2016-cı illərdə Əliheydər Məmmədov adına Təzəkənd kənd orta məktəbində təhsil alır. Məktəbi bitirdikdən sonra 2016-cı ilin iyulunda SHXÇDX-nın Ağdam Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır. Şəhidimiz Xüsusi Təyinatlı Qüvvələrin Xızı rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayır.

Qərib 2019-cu ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verir. Kursu uğurla bitirərək 2020-ci ilin aprelində Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə Piyadanın Döyüş Maşınında (PDM-3) baş mexanik-sürücü kimi işə başlayır. O, peşəkar sürücü olduğuna görə bölük komandiri öz "PDM-3"-nü idarə etməyi Qəribə tapşırır.

2020-ci il sentyabrın 27-də müharibə başlayan zaman onun bölüyü Füzuli rayonunun Alxanlı kəndi istiqamətindən döyüşlərə başlayır. Həmin gün səhər saatlarında hələ müharibə başlamamış atası ilə sonuncu dəfə əlaqə saxlayır.

Qəribin döyüş yoldaşı Şahin Mehdiyev deyir ki, biz artıq düşmənin birinci eşelonunu keçib, ikinciyə doğru hərəkət edirdik: "Bizdən öncə mina təmizləyən texnika gedirdi, o, eyni zamanda yol açırdı. Hər iki texnikamız vuruldu, qarşımızda val var idi, valın arxasından da ermənilər atəş açırdı, sağ tərəfdən isə canlı qüvvə ilə üstümüzə gəlirdilər. Biz sağdan hücum edən düşmənləri zərərsizləşdirərkən Qərib "PDM-3" ilə valın üstünə çıxıb qarşıdakı düşmənlərin diqqətini özünə çəkdi ki, bizimkilər valı yarıb irəliləyə bilsin. Həmin valı keçib düşmənin üzərinə gedirdik, orada Qəribin idarə etdiyi texnika əvvəlcə minaya düşdü, daha sonra isə vuruldu". Qısa və şərəfli döyüş yolu keçən Qərib sentyabrın 28-də şəhid olub, o, yaşadığı Təzəkəndin Vətən müharibəsində ilk şəhidi idi. Qərib elindən, obasından ayrı olsa da, Təzəkənd camaatı ona və ailəsinə qəriblik hiss etdirməyib, Qərib Təzəkəndin digər şəhidləri ilə birlikdə kənd qəbiristanında uyuyur. Bu gün artıq Qəribin doğma kəndi - Mərzili də işğaldan azad olub.

Şəhidimiz subay idi. Ailədə iki bacı, bir qardaş olublar.

İgidliyi və şücaəti ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Balacayev Qərib Nəsib oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" , "Füzulinin azad olunmasna görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# VATİKANDA MÜQƏDDƏS PYOTR KİLSƏSİNİN MƏRKƏZİ HİSSƏSİNDƏ BƏRPA İŞLƏRİNƏ BAŞLANILIB

Dahi Covanni Lorenzo Berninin şah əsəri olan kilsə 1700-cü illərin ortalarından bəri ilk böyük bərpa prosesindən keçdiyi üçün Müqəddəs Pyotr Bazilikasının mərkəzindəki nəhəng tunc və taxta örtük tədricən inşaat dayaqları arxasında qalıb.

Təxminən 700 min avroya (756 min dollar) başa gələn bərpa layihəsi ötən ay elan edilsə də, hazırlıq işləri fevralın 14-də başlayıb. Vatikan rəsmiləri bildiriblər ki, bu prosesin 2024-cü ilin noyabr ayının sonuna qədər başa çatdırılması planlaşdırılır. Bərpa işləri Katolik xeyriyyə təşkilatı olan "Kolumb rıtsarları" tərəfindən maliyyələşdirilir.

Bazilikanın əsas mehrabını örtən 30 metrə yaxın hündürlüyü olan "çətir" Roma imperatoru Neronun (54-68-ci illər) hakimiyyəti dövründə ilk Papa olmuş Apostol



Pyotrun qətlə yetirilməsindən sonra onun dəfn olunduğu güman edilən yerdə tikilib.

Kilsənin kommunikasiyalar üzrə rəhbəri Enzo Fortunato deyib ki, təkcə Papanın ayini icra edə biləcəyi mehrab "bazilikanın bütün memarlığının təməl daşıdır".

Bazilikaya cavabdeh olan San Pietro fabrikinin mühəndisi Alberto Kapitanuççi bildirib ki, "250 illik istifadə və istismardan" sonra strukturun xüsusi diqqətə ehtiyacı vardı. O qeyd edib ki, Papa Fransiskin xristian təqvimində ən mühüm bayramın qeyd edilməsinə rəhbərlik etməsi üçün Pasxa həftəsində təmizlik və təmir işləri dayandırılacaq.

Məqsəd 2025-ci Müqəddəs ilin başlanmasından əvvəl "Bernini çətiri" adlanan mərkəzi hissənin əzəmətini bərpa etməkdir. Yubiley ili kimi də tanınan və ən azı 25 ildə bir dəfə keçirilən Müqəddəs il budəfəki Milad ərəfəsində Papanın bazilikanın Müqəddəs qapısını açdığı zaman başlayır. Ənənəyə görə, bu hadisə günahlarının bağışlanmasını istəyən milyonlarla zəvvarın diqqətini cəlb edir.

# STOKHOLMDAKI MƏSCİD İKİNCİ DƏFƏ İSLAMOFOB HÜCUMA MƏRUZ QALIB



İsveçin paytaxtı Stokholmdakı məscid bir ildən artıqdır ki, islamofob hücumların hədəfinə çevrilib. Sonuncu insident çərşənbə günü baş verib. Məscidə gələn dindarlar divarlarda svastika işarəsi və "müsəlmanları öldürün" təhdid mesajı görüblər.

Anadolu agentliyi xəbər verir ki, İsveç paytaxtının Sodermalm rayonundakı məscidin qapısının üzərində "evinə get" sözləri də yazılıb. İbadət məkanının işçisi Mohammed Amin İsveçin SVT TV kanalına deyib ki, "tezliklə həbsxanada olduğu kimi, məscidlərdə də pəncərələrə qorunmaq üçün barmaqlıqlar qoymaq lazım gələcək".

Məscidlərə qarşı təhdidlərin daha ciddi qəbul edilməsini tələb edən Stokholm İslam Assosiasiyası irqçi hücumları pisləyən bəyanat yayıb və səlahiyyətliləri müsəlmanları hədəf alan nifrət cinayətlərinə qarşı tədbir görməyə çağırıb. Assosiasiyanın bəyanatında qeyd olunub: "Biz təhdidlərin kökündə müsəlmanlara qarşı irqçilik niyyətinin olduğunu görürük. Bu nifrət cinayətlərinə son qoymağın vaxtıdır, özümüzü din azadlığı fonunda təhlükəsiz hiss etmək istəyirik".

# İSRAİL ƏL-ƏQSA MƏSCİDİNDƏ NAMAZ QILMAĞA İCAZƏ VERƏCƏK

İsrailin hakimiyyət orqanları fələstinli müsəlmanlara Ramazan ayında Əl-Əqsa məscidində namaz qılmağa icazə verəcək, lakin bu müəyyən qayda və giriş meyarları ilə tənzimlənəcək. İsrail Baş nazirinin müşaviri Dmitri Qendelman bu barədə özünün sosial media hesabında bildirib.

Fevralın 18-də xarici medianın İsrail hökumətindəki mənbəyə istinadla dərc etdiyi məlumata görə, hakimiyyət orqanları Ramazan ayında İordan çayının qərb sahilindən Əl-Əqsa məscidinin yerləşdiyi Məbəd dağına fələstinlilərin girişini 15 min nəfərədək məhdudlaşdıracaq. İcazə yalnız yaşı 60-dan yuxarı olan şəxslərə və 10 yaşınadək uşaqlara veriləcək.



Xatırladaq ki, oktyabrın 7-də HƏMAS qruplaşması İsrailin nəzarətində olan ərazilərə hücum edib. Buna cavab olaraq İsrail ordusu Qəzzada hərbi əməliyyatlara başlayıb. Noyabrın 24-də Misir və Qətərin vasitəçiliyi ilə HƏMAS və İsrail arasında dörd günlük humanitar atəşkəs əldə olunub. Razılaşmaya əsasən, İsrail həbsxanalarındakı fələstinli yeniyetmə və qadınların azad edilməsi müqabilində Qəzza sektorunda saxlanılan bir qrup girov azadlığa buraxılıb. Sonradan atəşkəs rejimi eyni şərtlərlə daha iki gün uzadılıb. Dekabrın 1-də İsrail ordusu HƏMAS-ı atəşkəsi pozmaqda ittiham edərək Qəzzada yenidən hərbi əməliyyatlara başlayıb.

# *ÖTƏN İL "MÜQƏDDƏS CEYMS YOLU"NU REKORD SAYDA ZƏVVAR ZİYARƏT EDİB*




2023-cü ildə İspaniyanın "Müqəddəs Ceyms yolu"nu (Camino de Santiago) ziyarət edənlərin sayı, demək olar ki, yarım milyona çataraq rekord vurub. Bu barədə "catholicnewsagency" məlumat verib. Bu yol İspaniyada Santyaqo de Kompostelo Kafedralında saxlanılan Həvari Ceymsin qalıqlarına aparır.

Ötən ilin statistik hesabatına görə, məşhur "Müqəddəs Ceyms yolu"ndan 446 035 zəvvar, o cümlədən, əsasən, Əndəlüsün cənub bölgəsindən olan 200 minə yaxın ispaniyalı xristian keçib. Əcnəbilərə gəlincə, ən çox zəvvar ABŞ-dan (32 063) olub, ikinci yerdə italyanlar (28 645) və almanlar (24 342) gəlir. Müxtəlif yaş kateqoriyalarına aid zəvvarlar arasında qadınlar üstünlük təşkil edib. "Camino de Santiago" ənənəvi katolik ziyarəti hesab edilsə də, keçən il zəvvarların, demək olar ki, dörddəbiri "qeyri-dini səbəblərə görə" ziyarətə gediblər.

"Müqəddəs Ceyms yolu" ölkənin səmavi himayədarının IX əsrdə kəşf edilmiş qalıqlarına aparır. "Camino de Santiago" rəsmi olaraq "xristian dünyasının üç böyük ziyarətgahından" biri hesab olunur, 1987-ci ildə isə "Avropa Şurasının ilk mədəni marşrutu" elan edilib. Yolun əsas hissəsi İspaniyanın şimalından keçir. Populyarlığına və çoxlu qollara sahib olduğuna görə orta əsrlərdə mədəni nailiyyətlərin yayılmasına kömək edib.

Ziyarət marşrutunun populyarlığının qaytarılmasında 1980-ci illərdə keşiş Elias Valinya Sampedro böyük rol oynayıb. Həmçinin "Müqəddəs Ceyms Yolu"nun populyarlaşmasında Paulo Koelyonun "Sehrbazın gündəliyi" (1987) romanının rolu da inkaredilməzdir. 1993-cü ildən bu yol YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Santyaqo de Kompostelo Qüds və Romadan sonra katolikliyin üçüncü ən mühüm müqəddəs şəhəri hesab olunur. Rəvayətdə deyilir ki, həvari Ceymsin şəhadəti 44-cü ildə Yerusəlimdə baş verib, bundan sonra onun cəsədi qayığa qoyularaq dəniz sularına buraxılıb. Möcüzəvi şəkildə qayıq onun vaizlik etdiyi İspaniyaya üzüb və orada iki şagirdi tərəfindən Libredon dağında dəfn edilib. 813-cü ildə yolgöstərən ulduz zahid rahib Pelayonu həvarinin çürüməmiş qalıqları olan məzara gətirib çıxarır. Zamanla bu yerdə Santyaqo de Kompostelo şəhəri ("Campus Stellae" sözündən əmələ gəlib, "Ulduzun yeri" deməkdir) yaranır.

Müqəddəs Ceyms möcüzəvi şəkildə mavrlarla döyüşən xilasedici əsgərlərə görünür və o vaxtdan İspaniyanın və Rekonkistanın himayədarına çevrilir. Ziyarət ənənəsinin əsası imperator Böyük Karl tərəfindən qoyulur. O, yuxusunda Fransa və İspaniyadan keçərək müqəddəs yerə aparan "Süd Yolu"nu görür. Tanrı hökmdara "ulduzlu yolu mavrlardan təmizləməyi" əmr edir və o da bu əmri yerinə yetirir. İlk tanınmış zəvvar 950-951-ci illərin qışında Fransadan Kompostelaya gələn yepiskop Qotçalk olur. XII əsrdə Papa II Kalixtus zəvvarlara günahlardan bağışlanma hüququ verir və bununla da, Kompostelanı Yerusəlim və Roma ilə bərabərləşdirir.

Orta əsrlərdə Kompostelaya zəvvarların böyük axını olsa da, vəba epidemiyası, sonra isə reformasiya və XVI əsr müharibələri ilə qəfil dayanır. Yalnız 1980-ci illərdə bütün qitələrdən zəvvarların yenidən sürətli axını baş verir.

Müqəddəs Yaqub səyyahların himayədarı hesab olunur, dəniz ilbizi qabığı isə ona gedən yolun simvoluna çevrilib. Zəvvarlar papaqlarını, plaşlarını, əsalarını və bel çantalarını qabıq işarəsi ilə bəzəyirlər. Bütün yol dəniz ilbizi qabığının təsviri olan sarı ox işarələri ilə nişanlanıb.

# Mübarək Ramazan ayının gündəlik duaları

Ya əliyyu ya əzim, ya ğafuru ya rəhim, əntər-rəbbul-əzim, əlləzi ləysə kəmislihi şəy və huvəs-səmiul-bəsir, və haza şəhrun əzzəmtəhu və kərrəmtəhu və şərrəftəhu və fəzzəltəhu ələş-şuhur, və huvəş-şəhrul-ləzi fərəztə siyaməhu ələyyə və huvə şəhru ramazan əlləzi ənzəltə fihil-quran, hudəl-linnasi və bəyyinatin minəl-huda vəl-furqan, və cəəltə fihi ləylətəl-qədr, və cəəltəha xəyrən min əlfi şəhr, fəya-zəl mənni və la yumənnu ələykə munnə ələyyə bifəkaki rəqəbəti minən-nar, fi mən təmunnu ələyhi və ədxilnil-cənnəh, birəhmətikə ya ərhəmər-rahimin.

**Bismillahir Rəhmanir Rəhim**

Allahummə ləkə sumtu və bikə aməntu və ələykə təvəkkəltu və əla rizqikə əftərtu və saumə-ğədi min şəhri Ramazanə nəvəytu, fəğfirli ma qəddəmtu və ma əxxərtu.

Allahummə ədxil əla əhlil-quburis-surur, Allahummə əğni kullə fəqir, Allahummə əşb'i kullə ca'i, Allahumməksu kullə uryan, Allahumməqzi dəynə kulli mədin, Allahummə fərric ən kulli məkrub, Allahummə ruddə kullə ğərib, Allahummə fukkə kullə əsir, Allahummə əslih kullə fasidin min umuril-muslimin, Allahumməşfi kullə məriz, Allahummə suddə fəqrəna biğinak, Allahummə ğəyyir suə halina bihusni halik, Allahumməqzi ənnəd-dəynə və əğnina minəl-fəqr, innəkə əla kulli şəyin qədir.

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ



2024 - 1445

RAMAZAN AYININ TƏQVİMİ

Bakı

| Həftənin günləri | Hicri ayı | Miladi ayı | İmsak vaxtı | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Gün batır | Məğrib azanı | İşa azanı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bazar ertəsi | 01 Ramazan | 11 Mart | 05:33 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:43 | 18:57 | 19:58 |
| Çərşənbə axş. | 02 Ramazan | 12 Mart | 05:31 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:45 | 18:59 | 19:59 |
| Çərşənbə | 03 Ramazan | 13 Mart | 05:30 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 18:46 | 19:00 | 20:00 |
| Cümə axş. | 04 Ramazan | 14 Mart | 05:28 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 18:47 | 19:01 | 20:01 |
| Cümə | 05 Ramazan | 15 Mart | 05:26 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 18:48 | 19:02 | 20:03 |
| Şənbə | 06 Ramazan | 16 Mart | 05:25 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 18:49 | 19:03 | 20:04 |
| Bazar | 07 Ramazan | 17 Mart | 05:23 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 18:50 | 19:04 | 20:05 |
| Bazar ertəsi | 08 Ramazan | 18 Mart | 05:21 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 18:51 | 19:05 | 20:06 |
| Çərşənbə axş. | 09 Ramazan | 19 Mart | 05:20 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 18:52 | 19:06 | 20:07 |
| Çərşənbə | 10 Ramazan | 20 Mart | 05:18 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 18:53 | 19:07 | 20:08 |
| Cümə axş. | 11 Ramazan | 21 Mart | 05:16 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 18:54 | 19:08 | 20:09 |
| Cümə | 12 Ramazan | 22 Mart | 05:14 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 18:55 | 19:09 | 20:11 |
| Şənbə | 13 Ramazan | 23 Mart | 05:13 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 18:56 | 19:10 | 20:12 |
| Bazar | 14 Ramazan | 24 Mart | 05:11 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 18:57 | 19:11 | 20:13 |
| Bazar ertəsi | 15 Ramazan | 25 Mart | 05:09 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 18:58 | 19:12 | 20:14 |
| Çərşənbə axş. | 16 Ramazan | 26 Mart | 05:07 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 18:59 | 19:13 | 20:15 |
| Çərşənbə | 17 Ramazan | 27 Mart | 05:05 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:00 | 19:14 | 20:16 |
| Cümə axş. | 18 Ramazan | 28 Mart | 05:04 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:01 | 19:15 | 20:18 |
| Cümə | 19 Ramazan | 29 Mart | 05:02 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:02 | 19:17 | 20:19 |
| Şənbə | 20 Ramazan | 30 Mart | 05:00 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:03 | 19:18 | 20:20 |
| Bazar | 21 Ramazan | 31 Mart | 04:58 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:04 | 19:19 | 20:21 |
| Bazar ertəsi | 22 Ramazan | 01 Aprel | 04:56 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:05 | 19:20 | 20:22 |
| Çərşənbə axş. | 23 Ramazan | 02 Aprel | 04:55 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:07 | 19:21 | 20:24 |
| Çərşənbə | 24 Ramazan | 03 Aprel | 04:53 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:08 | 19:22 | 20:25 |
| Cümə axş. | 25 Ramazan | 04 Aprel | 04:51 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:09 | 19:23 | 20:26 |
| Cümə | 26 Ramazan | 05 Aprel | 04:49 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:10 | 19:24 | 20:27 |
| Şənbə | 27 Ramazan | 06 Aprel | 04:47 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:11 | 19:25 | 20:28 |
| Bazar | 28 Ramazan | 07 Aprel | 04:46 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:12 | 19:26 | 20:30 |
| Bazar ertəsi | 29 Ramazan | 08 Aprel | 04:44 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:13 | 19:27 | 20:31 |
| Çərşənbə axş. | 30 Ramazan | 09 Aprel | 04:42 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:14 | 19:28 | 20:32 |

**Şəvval ayının 1-i (10 Aprel) Fitr (Ramazan) bayramıdır.**

**Ramazan ayının 1-ci gününün duası:**

"Allahumməc'əl siyami fihi siyamus-saiminə və qiyami fihi qiyamul-qaimin. Və nəbbihni fihi ən naumətul-ğafilin. Vəhəb li cürmi fihi ya ilahul-aləmin. Və'fu ənni ya afiyən ənil-mücrimin".

Tərcüməsi:

"İlahi, bu ayda tutduğum orucu həqiqi oruc tutanların orucundan, gecələr oyaq qalmaqla etdiyim ibadətləri əsil gecə ibadətçilərinin ibadətindən qərar ver. Məni bu ayda qafillərin getdiyi yuxudan uzaq et. Bu ayda günahlarımdan keç, ey Aləmlərin Allahı. Məni bağışla, ey günahkarları bağışlayan!"

**Ramazan ayının 2-ci gününün duası:**

"Allahummə qərribni fihi ila mərzatik. Və cənnibni fihi min səxətikə və nəqimatik. Və vəffiqni fihi liqiraəti ayatik. Birəhmətikə ya ərhəmər-rahimin".

Tərcüməsi:

"İlahi, bu gün məni öz razılığına yaxınlaşdır, qəzəb və intiqamından uzaq et. Sənin ayələrini (Qurani-Kərimi) oxumaqda mənə müvəffəqiyyət ver. Sonsuz mərhəmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!"

**Ramazan ayının 3-cü gününün duası:**

"Allahummərziqni fihiz-zihnə vət-tənbih. Və baidni fihi minəs-səfahəti vət-təmvih. Vəc'əl nəsibən min kulli xeyrin tunzilu fih. Vicudikə ya əcvədəl-əcvədin".

Tərcüməsi:

"İlahi, bu gün mənə güclü ağıl və ayıq-sayıqlıq ruzisini əta et, məni səfehlik və dərrakəsizlikdən uzaqlaşdır. Bu gün göndərdiyin hər şeydə mənə xeyir nəsib et. Səxavətinə and verirəm, ey əliaçıqların ən səxavətlisi!"

**Ramazan ayının 4-cü gününün duası:**

"Allahummə qəvvini fihi əla iqaməti əmrik. Və əziqni fihi həlavətə zikrik. Və əvzi'ni fihi li-ədai şükrik. Bikərəmikə vəhfəzni fihi bihifzikə və sətrik, ya əbsərən-nazirin".

Tərcüməsi:

"İlahi, əmrlərini yerinə yetirməkdə mənə qüvvət ver, zikrinin şirinliyini mənə dadızdır. Sənə layiqincə şükür etmək üçün məni ilhamlandır. Kəraminə and verirəm, məni öz himayəndə gizlət və qoru, ey görənlərin ən bəsirətlisi!"

**Ramazan ayının 5-ci gününün duası:**

"Allahumməc'əlni fihi minəl-müstəğfirin. Vəc'əlni fihi min ibadikəs-salihinəl-qanitin. Vəc'əlni fihi min auliyaikəl-müqərrəbin. Birə'fətikə ya ərhəmər-rahimin".

Tərcüməsi:

"İlahi, bu gün məni bağışlanmışlardan, Sənin fərmanına baş əyən saleh bəndələrindən və yaxın dostlarından qərar ver. Mərhəmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!"

**Ramazan ayının 6-cı gününün duası:**

"Allahummə la təxzulni fihi li-təərrüzi mə'siyətik. Və la təzribni bisiyati nəqimətik. Və zəhzihni fihi min mucibati səxətik. Bimənnikə və əyadikə ya muntəha rəğbətir-rağibin".

Tərcüməsi:

"İlahi, bu gün Sənə qarşı etdiyim günahlara görə məni rüsvay etmə. Məni intiqam qamçınla vurma. Bu gün Sənin qəzəbinə səbəb olan işlərdən məni uzaq et. Bəxşiş və nemətlərinə and verirəm, ey şövqlü şəxslərin arzusunun müntəhası!"

**Ramazan ayının 7-ci gününün duası:**

"Allahummə əinni fihi əla siyamihi və qiyamih. Və cənnibni fihi min həfəvatihi və asamih. Vərzuqni fihi zikrəkə bidəvaih. Bitəvfiqikə ya hadiyəl-muzillin".

Tərcüməsi:

"İlahi, mənə bu gün oruc tutmaqda və gecə oyaq qalıb ibadət etməkdə kömək ol. Bu gün məni səhv və nöqsanlardan uzaqlaşdır. Sənin daimi zikrini mənə qismət et. Kömək və yardımına and verirəm, ey yolunu azmışların hidayətçisi!"

**Ramazan ayının 8-ci gününün duası:**

"Allahummərzuqni fihi rəhmətul-əytami və it'amut-təami. Və ifşa əs-səlami və söhbətəl-kiram. Bitəvlikə ya məlcəul-amilin".

Tərcüməsi:

"İlahi, bu gün yetimlərə qarşı mehriban olmağı, ehtiyacı olanlara yemək verməyi, camaatla ucadan salamlaşmağı və kəramətli şəxslərlə dostluğu mənə nəsib et. Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin pənahı!"

**Ramazan ayının 9-cu gününün duası:**

"Allahummə'əl li fihi nəsibun min rəhmətikəl-vasiə. Vəhdini fihi libərahinikəs-satiə. Və xuz binasiyəti ila mərzatikəl-camiə. BimƏhəbbətikə ya əmələl-müştaqin".

Tərcüməsi:

"İlahi, bu gün öz bol rəhmətini mənə nəsib et. Məni öz parlaq dəlillərinlə istiqamətləndir. Məni Sənin razılığına bais olan və hər cür xeyri özündə cəm edən əməllərə doğru çək. Məhəbbətinə and verirəm, ey şövqlülərin istəyi!"

**Ramazan ayının 10-cu gününün duası:**

"Allahumməc'əlni fihi minəl-mütəvəkkilinə ələyk. Vəc'əlni fihi minəl-faizinə lədeyk. Vəc'əlni fihi minəl-müqərrəbinə ileyk. Biihsanikə ya ğayətut-talibin".

Tərcüməsi:

"İlahi, bu gün məni Sənə təvəkkül edənlərdən, Sənin nəzdində feyz və səadət tapanlardan, Sənin dərgahına yaxın olanlardan qərar ver. Ehsanına and verirəm, ey tələb edənlərin məqsədi!"

**Ramazan ayının 11-ci gününün duası:**

"Allahummə həbbib ileyyə fihil-ihsan. Və kərrih ileyyə fihil-fusuqə vəl-isyan. Və hərrim ələyyə fihis-səxətə vən-niran. Bi-aunikə ya ğiyasəl-müstəğisin".

Tərcüməsi:

"İlahi, bu gün ehsan etməyi mənə sevdir! Bu gün fisq və asilikdən məni ikrah etdir! Bu gün öz qəzəbini və cəhənnəm atəşini məndən uzaqlaşdır! Yardımına and verirəm, ey fəryad edənlərin dadına çatan!"

**Ramazan ayının 12-ci gününün duası:**

"Allahummə zəyyinni fihi bis-sətri vəl-əfaf. Vəsturni fihi bilibasil-qünui vəl-kəfaf. Vəhmilni fihi ələl-ədli vəl-insaf. Və amilni fihi min kulli ma əxaf. Bi-ismətikə ya isməətul-xaifin".

Tərcüməsi:

"İlahi, bu gün günahlarımı gizlətmək və iffət bağışlamaqla məni zinətləndir. Bu gün mənə qənaət və kifayətcillik libasını geyindir. Məni bu gün ədalət və insafa vadar et. Bu gün məni bütün qorxduğum şeylərdən amanda saxla. İsmətinə and verirəm, ey qorxu içində olanların mühafizəçisi".

**Ramazan ayının 13-cü gününün duası:**

"Allahummə təhhirni fihi minəd-dənəsi vəl-əqzar. Və səbbirni fihi əla kainatil-əqdar. Və vəffiqni fihi lit-tuqa və suhbətil-əbrar. Bi-aunikə ya qurrətu eynil-məsakin".

Tərcüməsi:

"İlahi, bu gün məni günahların kəsafət və çirkinliyindən təmizlə! Qəzavü-qədərə uyğun bu gün baş verən hadisələrdə məni səbrli et! Bu gün məni təqvaya və yaxşı insanların söhbətinə müvəffəq et! Yardımına and verirəm, ey çarəsizlərin gözünün işığı".

# Mübarək Ramazan ayının gündəlik duaları

**Ramazan ayının 14-cü gününün duası:**
"Allahummə la tuaxizni fihi bil-əsərat. Və əqilni fihi minəl-xətaya vəl-həfəvat. Və la təc'əlni fihi ğərəzən lil-bəlaya vəl-afat. Bi-izzətikə ya izzəl-muslimin".
Tərcüməsi:
"İlahi, bu gün səhvlərimə görə mənə qəzəblənmə! Bu gün xətalarıma göz yum! Məni bəla və afətlərə hədəf etmə! İzzətinə and verirəm, ey müsəlmanlara izzət verən Allah!"

**Ramazan ayının 15-ci gününün duası:**
"Allahummərzuqni fihi taətəl-xaşiin. Vəşrih fihi sədri bi-inabətil-muxbitin. Bi-əmanikə ya əmanəl-xaifin".
Tərcüməsi:
"İlahi, bu gün qəlbində Allah xofu olan şəxslərə məxsus itaəti mənə nəsib et! Bu gün sinəmi təvazökarların tövbəsi ilə genişləndir! Əminliyinə and verirəm, ey qorxu əhlinə əminlik bəxş edən Allah!"

**Ramazan ayının 16-cı gününün duası:**
"Allahummə vəffiqni fihi limuvafəqətil-əbrar. Və cənnibni fihi murafəqətul-əşrar. Və auni fihi birəhmətikə ila daril-qərar. Bi-ilahiyyətikə ya ilahəl-aləmin".
Tərcüməsi:
"İlahi, bu gün yaxşı bəndələrin tayı olmağı mənə nəsib et! Məni pis adamlardan uzaqlaşdır! Bu gün mənə öz rəhmətinlə behişt qərargahında yer ver! Allahlığına and verirəm, ey aləmlərin Allahı".

**Ramazan ayının 17-ci gününün duası:**
"Allahummə əhdini fihi lisalihil-ə'mal. Vəqzi li fihil-həvaicə vəl-amal. Ya mən la yəhtacu ilət-təfsiri vəs-sual. Ya alimən bima fi suduril-aləmin. Səlli əla Muhəmmədin və alihit-tahirin".
Tərcüməsi:
"İlahi, bu gün məni saleh əməllərə doğru yönəlt! Ehtiyac və arzularımı yerinə yetir! Ey izaha və suala ehtiyacsız, qəlblərdəkindən xəbərdar olan Allah! Məhəmmədə və pak əhli-beytinə Sənin salavatın olsun".

**Ramazan ayının 18-ci gününün duası:**
"Allahummə nəbbihni fihi libərəkati əsharih. Və nəvvir fihi qəlbi biziyai ənvarih. Və xuz bikulli ə'zai ilət-tibai asarih. Bi-nurikə ya münəvvirə qulubil-arifin".
Tərcüməsi:
"İlahi, bu gün məni səhərlərin bərəkəti ilə oyat! Qəlbimi bu səhərlərin ziyası ilə işıqlat! Bədən üzvlərimi bu günün təsirinə tabe olmağa yönəlt! Nuruna and verirəm, ey ariflərin qəlbini nurlandıran Allah".

**Ramazan ayının 19-cu gününün duası:**
"Allahummə vəffir fihi həzzi min bərəkatih. Və səhhil səbili ila xeyratih. Və la təhrimni qəbulə həsənatih. Ya hadiyən iləl-həqqil-mubin".
Tərcüməsi:
"İlahi, bu günün bərəkəti ilə məni bəhrələndir! Xeyirliklərə doğru yolumu hamarla! Bu günün ehsanını qəbul etməkdən məni məhrum etmə! Ey aşkar haqq yolunun hidayətçisi".

**Ramazan ayının 20-ci gününün duası:**
"Allahumməftəh li fihi əbvabəl-cinan. Və əğliq ənni fihi əbvabən-niran. Və vəffiqni fihi litilavətil-Qur'an. Ya munziləs-səkinəti fi qulubil-mu'minin".
Tərcüməsi:
"İlahi, bu gün mənim üzümə cənnət qapılarını açıb, cəhənnəm qapılarını bağla! Bu gün məni Qur'an oxumaqda müvəffəq et! Ey möminlərin qəlbinə aramlıq bəxş edən Allah".

**Ramazan ayının 21-ci gününün duası:**
"Allahummə'əl li fihi ila mərzatikə dəlila. Və la təc'əl liş-şeytani fihi əleyyə səbila. Vəc'əlil-cənnətə li mənzilən və məqila. Ya qaziyə həvaicit-talibin".
Tərcüməsi:
"İlahi, bu gün Sənin razılığına bais olan əməllərə doğru mənə yol göstər! Bu gün şeytanın mənə hökmranlıq yollarını bağla! Cənnəti mənim üçün mənzil və aramgah et! Ey tələb əhlinin ehtiyacını yerinə yetirən Allah!"

**Ramazan ayının 22-ci gününün duası:**
"Allahumməftəh li fihi əbvabu fəzlik. Və ənzil əleyyə fihi bərəkatuk. Və vəffiqni fihi limucibati mərzatik. Və əskinni fihi buhbuhati cənnatik. Ya mücibə də'vətil-muztərrin".
Tərcüməsi:
"İlahi, bu gün fəzl qapılarını üzümə aç, bərəkətlərini mənə göndər. Bu gün sənin razılığına bais olan işlərdə məni müvəffəq et, məni behiştin ən yaxşı yerində sakin et. Ey biçarələrin duasını qəbul edən Allah!"

**Ramazan ayının 23-cü gününün duası:**
"Allahumməğsilni fihi minəz-zunub. Və təhhirni fihi minəl-uyub. Vəmtəhin qəlbi fihi bitəqval-qulub. Ya muqilə əsəratil-muznibin".
Tərcüməsi:
"İlahi, bu gün mənim günahlarımı yuyub, məni eyiblərdən təmizlə! Bu gün qəlbimi təqva ilə xalis et! Ey günahkarların xətasına göz yuman Allah!"

**Ramazan ayının 24-cü gününün duası:**
"Allahummə inni əs'əlukə fihi ma yurzik. Və əuzu bikə mimma yu'zik. Və əs'əlukət-tovfiqə fihi li-ən utiəkə və la ə'siyək. Ya cəvadus-sailin".
Tərcüməsi:
"İlahi, bu gün Səni razı salan əməlləri Səndən istəyirəm. Səni qəzəbləndirən əməllərdən Sənə sığınıram. Sənə tabe olmaq və Sənə qarşı üsyan etməmək üçün yardım istəyirəm. Ey xahiş edənlərə bəxşiş verən Allah!"

**Ramazan ayının 25-ci gününün duası:**
"Allahumməc'əlni fihi muhibbən li-ovliyaik. Və muadiyən li-ə'daik. Mustənnən bisunnəti xatəmi ənbiyaik. Ya asimə qulubin-nəbiyyin".
Tərcüməsi:
"İlahi, bu gün məni Sənin dostlarını sevənlərdən, Sənin düşmənlərinlə düşmən olanlardan qərar ver! Məni sonuncu Peyğəmbərinin sünnəsinə əməl edənlərdən qərar ver! Ey peyğəmbərlərin qəlbinin hamisi olan Allah!"

**Ramazan ayının 26-cı gününün duası:**
"Allahumməc'əl sə'yi fihi məşkura. Və zənbi fihi məğfura. Və əməli fihi məqbula. Və eybi fihi məstura. Ya əsməəs-samiin".
Tərcüməsi:
"İlahi, bu gün mənim səylərimi qiymətləndir, günahlarımı bağışla, əməlimi qəbul et, eyiblərimi ört! Ey bəndələrini hamıdan yaxşı eşidən Allah!"

**Ramazan ayının 27-ci gününün duası:**
"Allahummərzuqni fihi fəzlu leylətil-Qədr. Və səyyir umuri fihi minəl-usri iləl-yusr. Vəqbəl məaziri və huttə ənniz-zənbə vəl-vizr. Ya rəufən bi-ibadihis-salihin".
Tərcüməsi:
"İlahi, bu gün mənə Qədr gecəsinin fəzilətini nəsib et! Bu gün mənim işlərimi çətinlikdən asanlığa doğru yönəlt! Üzrümü qəbul et, günah yükünü üstümdən götür! Ey saleh bəndələrinə qarşı mehriban olan Allah!"

**Ramazan ayının 28-ci gününün duası:**
"Allahummə vəffir həzzi fihi minən-nəvafil. Və əkrimni fihi bi-ihzaril-məsail. Və qərrib fihi vəsiləti ileykə min beynil-vəsail. Ya mən yəşğəluhu ilhahul-mulihhin".
Tərcüməsi:
"İlahi, bu gün mənə yaxşı əməllərin bəhrəsini bol et! İstəklərimi yerinə yetirməklə mənə kəramət göstər! Sənə yetmək üçün yollar içindən seçdiyim yolu özünə yaxın et! Ey israr edənlərin öz israrları ilə məşğul edə bilmədikləri Allah!"

**Ramazan ayının 29-cu gününün duası:**
"Allahummə ğəşşini fihi bir-rəhməh. Vərzuqni fihit-taufiqə vəl-isməh. Və təhhir qəlbi min ğəyabihit-tuhməh. Ya rəhimən bi-ibadihil-mu'minin".
Tərcüməsi:
"İlahi, bu gün məni öz sonsuz rəhmətinlə əhatə et! Bu gün mənə qüvvət və ismət nəsib et! Ürəyimi töhmətçilik qaranlığından təmizlə! Ey mömin bəndələrinə rəhmli olan Allah!"

**Ramazan ayının 30-cu gününün duası:**
"Allahumməc'əl siyami fihi biş-şukri vəl-qəbul. Əla ma tərzahu və yərzahur-Rəsul. Muhkəmətən furuuhu bil-usul. Bihəqqi seyyidina Muhəmmədin və alihit-tahirin. Vəlhəmdu lillahi rəbil-aləmin".
Tərcüməsi:
"İlahi, bu gün mənim orucumu şükürlü və qəbul olunmuş qərar ver, öz bəyəndiyin və Peyğəmbərinin bəyəndiyi oruclardan et! Elə oruclardan ki, xırdalıqları da əsas iman prinsiplərinə əsaslansın. Səni and verirəm ağamız Məhəmmədə və pak nəslinə. Aləmlərin rəbbi olan Allaha həmd olsun".

**İftar duası:**
"Allahummə ləkə sumtu və əla rizqikə əftərtu və əleykə təvəkkəltu. Bismillahir-Rəhmanir-Rəhim. Ya vasiəl-məğfirəti iğfirli".
Tərcüməsi:
"İlahi, səndən ötrü oruc tutdum, sənin verdiyin ruzi ilə iftar açdım və sənə təvəkkül etdim. Bağışlayan və mehriban Allahın adı ilə. Ey hüdudsuz bağışlama sahibi, mənim günahlarımı bağışla!"

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2023

## NUAKŞOT

Qərbi Afrikanın şimal-qərbində, Atlantik okeanının sahilində yerləşən Nuakşot Mavritaniya İslam Respublikasının paytaxtı, eyni zamanda ən böyük şəhəridir. Ölkənin inzibati və iqtisadi mərkəzi hesab edilən şəhər ərəb dilinin həsəniyyə ləhcəsindən tərcümədə "küləklər diyarı" mənasını verir.

Mavritaniya ərazisi uzun illər müxtəlif dövlətlər tərəfindən idarə olunmuşdur. Əsasən köçəri xalqların məskunlaşdığı ərazi olduğu üçün burada şəhərsalma ləng inkişaf etmişdir. Bu səbəbdən Mavritaniya müstəqilliyini əldə etdiyi zaman qarşıda duran problemlərdən biri də paytaxtın seçilməsi olmuşdur. Belə ki, əsası XX əsrin əvvəlində qoyulmuş kiçik balıqçı qəsəbəsi olan Nuakşot 1957-ci ildən salınmağa başlanmış və 1960-cı il noyabrın 28-də ölkənin paytaxtı elan edilmişdir. Şəhər əvvəlcə 15.000 nəfərin yaşaması üçün nəzərdə tutulsa da, 1970-ci illərdə baş verən quraqlıq nəticəsində kəndlilərin şəhərə axını ilə əhali sayında kəskin artım müşahidə olunmuşdur. Axın sürətli olduğu üçün gələnlərin çoxu şəhərin baxımsız və həddən artıq sıx qurulan gecəqondu ərazilərində məskunlaşmışlar. Ümumi ərazisi 1,030,000 km² olan Mavritaniyada təxminən 5 milyona yaxın insan yaşayır ki, onun da 600.000-ni paytaxt sakinidir. Lakin qeyri-rəsmi məlumatlara görə, hazırda Nuakşotda təxminən 1 milyondan çox insan yaşayır. Bu gün ölkə əhalisinin təxminən 61,%-i şəhərlidir. 1973-cü ildən başlayaraq şəhər bölgələrə ayrılmış və 1986-cı ildə bölgələrin sayı doqquza çatdırılmışdır. Hazırda şəhər 53 rayon və 208 kommunaya bölünür. Öləkinin əsas su limanı və iki beynəlxalq hava limanından biri, həmçinin Nuakşot Universiteti bu şəhərdə yerləşir.

Mavritaniya ən iri şəhəri, eyni zamanda mədəni və iqtisadi mərkəzi olan Nuakşot qədim və müasir olmaqla iki hissəyə ayrılmışdır. Şəhərin "ksar" adlanan gildən tikilmiş evlərdən ibarət olan qədim hissəsi öz xarici görkəmini saxlaya bilsə də, yeni şəhər daha müasir görünüşə malikdir. Burada küçələr asfaltla döşənmiş və iki-üç mərtəbəli evlərlə əhatələnmişdir. Ümumiyyətlə, şəhərdə nadir hallarda çoxmərtəbəli binalara rast gəlinir. Şəhərin bu hissəsi müasir ictimai və yaşayış binalarının memarlığı Mavritaniya memarlığının ənənəvi elementləri ilə vəhdət təşkil edir. Bütün şəhər, demək olar ki, milli üslubda inşa edilmiş ikimərtəbəli evlərdən ibarətdir. Bu evlərin fonunda avropa üslubunda inşa edilmiş ictimai və inzibati binalar ayrıca seçilir: Milli Məclis, Ədliyyə sarayı, Prezident iqamətgahı və s.



Mavritaniyanın digər ərazilərinə nisbətən o qədər də qədim tarixi olmayan Nuakşot ölkənin müasir inkişafında başlıca rol oynayır. Mavritaniyanın əsas sənayə obyektləri və elm mərkəzləri, demək olar ki, Nuakşotda cəmləşmişdir. Şəhərdə mədənçilik, qida, metal, ağac emalı sənayesi daha çox inkişaf etmişdir. Həmçinin liman şəhəri olan Nuakşotda əhalinin əsas gəlir mənbəyi balıqçılıq və xırda baş heyvandarlıqdır.

Mavritaniyanın ümumi əhalisinin 99%-i müsəlman, 1%-i isə qeyri- müsəlmanlardır ki, onların da, demək olar, hamısı ölkə vətəndaşı deyil. Müəsəlmanların isə böyük əksəriyyəti sünni məzhəbinin nümayəndələridir. Ölkənin digər şəhərində olduğu kimi, Nuakşotda da ibadət yerlərinin əksəriyyəti məscidlərdir. Şəhərə xüsusi gözəllik verən bir neçə məscid var ki, onların ən məşhurları İbn Abbas məscidi, Səudiyyə məscidi və Mərakeş məscidləridir.

İbn Abbas məscidi Nuakşotda müstəqillikdən sonra ilk tikilən məsciddir. Bu səbəbdən bəzən ona "köhnə məscid" də deyilir. Onun əsası 1963-cü ildə Mavritaniyanın ilk Prezidenti Muxtar Uld Daddanın təşəbbüsü ilə qoyulmuşdur. 1980-ci illərdə məscidin yanında İslam hüququ və ərəb dili elmlərinin tədrisi üzrə ixtisaslaşan ali təhsil müəssisəsi olan İbn Abbas İnstitutu yaradılmışdır. Uzun illər dövlət rəsmiləri bayramları qeyd etmək üçün bu məscidə gəlmiş və dini ayinləri icra etmişlər. Məscidi möhkəm divarlar əhatə etsə də, günümüzdə təmirə ehtiyacı var. Qeyd etmək lazımdır ki, məscid bir neçə dəfə təmir edilmişdir.

Səudiyyə məscidi Nuakşotda İbn Abbas məscidindən sonra ikinci ən qədim məscid hesab olunur. Məscid Səudiyyə Ərəbistanı Kralı Feysəl ibn Əbdüləzizin 1972-ci ildə Mavritaniyaya səfərindən sonra onun maliyyə yardımı inşa edilmişdir. Mavritaniyalılar bu səbəbdən məscidi Səudiyyə və ya Mədinə məscidi adlandırır.

Nuakşotun ən böyük məscidi hesab edilən bu ibadət ocağı paytaxtın mərkəzində, dövlət qurumlarına və nazirliklərə yaxın yerdə yerləşir. Daxili sahəsi təxminən 6600 m²-dir. Hər gün, xüsusən də cümə günləri minlərlə insan burada namaz qılır. İndoneziya memarlıq üslubunda tikilən məscidin daxili tavanı piramida formadadır. Həmçinin, onun qum rəngində olması şəhərin ümumi görünüşü ilə ahəngdarlıq təşkil edir. Məscidin daxilində şəriət məktəbi də fəaliyyət göstərir.

Mərakeş məscidi paytaxtın mərkəz hissəsinə yaxın, İbn Abbas məscidinin cənubunda, Mərakeş bazarının və Mərakeş Mədəniyyət Mərkəzinin yanında yerləşir. Mavritaniyalıların Mərakeş məscidi adlandırdığı bu ibadət evinin ikinci adı II Həsən məscididir. Mərakeş dövlətinin maliyyə yardımı ilə 1987-ci ildə inşa edilən məscid Mərakeş memarlığı üslübunda dizayn edilmişdir. Bunu minarədən başlayaraq divarları bəzəyən kaşılardan, tavandan asılmış iri çilçıraqlardan görmək olar. Bina, ümumiyyətlə, qravüra, bəzəklər, yaşıl rənglər, daş və mərmər mozaikalarla səciyyələnir. Məscidin ağ, mavi və yaşıl rənglərdə mürəkkəb İslam ornamentləri bəzədilmiş minarəsinin hündürlüyü 55 m-dir. Damının yaşıl rəngdə olması onu əhatə edən digər tikililərdən fərqləndirir. Nuakşotun üç ən böyük məscidindən biri olan Mərakeş məscidinin yanında yerləşən Mərakeş Mədəniyyət Mərkəzində teatr və kino tamaşaları, plastik sənət sərgiləri, şeir gecələri təşkil edilir. Mərkəzdə 10000-dən çox nadir kitab və əlyazmanın mühafizə edildiyi kitabxana da mövcuddur.

Nuakşot 2023-cü ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# VENESİYADA TAPILAN ERKƏN ORTA ƏSR KİLSƏSİNİN QAZINTILARI DAVAM EDİR

"The History" bloqunun yaydığı məlumat görə, Venesiyanın əsas meydanının altında "qeyb olmuş kilsə" San-Ceminianonun qalıqları aşkar edilib. Bu kilsə 1807-ci ildə birdəfəlik dağıdılmazdan əvvəl əsrlər boyu Venesiyada San-Marko meydanı boyu yer dəyişmişdir.

İndiyədək arxeoloqlar orta əsrlərə aid səkilərin və divarların fraqmentlərini, həmçinin yeddi nəfərin qalıqlarının olduğu kərpic sərdabə aşkar ediblər. VII-VIII əsrlərə aid edilən sərdabə hələ San-Marko meydanının tikintisindən əvvəl yaradılmışdır.

Yerli Venesiya əfsanəsində deyilir ki, ilk San-Ceminiano kilsəsi bizim eranın VI əsrinin ortalarında Bizans generalı Narsesin əmri ilə bizanslıların Ravennanı ələ keçirməsində Venesiyanın verdiyi töhfəyə görə minnətdarlıq əlaməti olaraq tikilmişdir.



San-Ceminiano kilsəsi 976-cı ildə yandıqdan sonra XI əsrin ilk onilliyində yenisi inşa olunmuşdur. Bu kilsə də yanmış, 1108-ci ildə baş verən zəlzələdən sonra isə dağılmışdır. Bərpa olunan kilsə daha sonra XII əsrin sonunda San-Marko meydanının genişləndirilməsi məqsədilə sökülmüşdür.

Məbəd genişləndirilmiş yeni ərazidə başqa yerə köçürülmüşdür. XII əsr kilsəsi XVI əsrin əvvəllərində sökülmüş və yenisi yenidən başqa yerə köçürülmüşdür. Bu sonuncu məbəd 1807-ci ilə qədər - Napoleon tərəfindən Prokurasiyaların yeni qanadına, meydanın üç tərəfini əhatə edən uzun sütunlu binalara yer açmaq üçün sökülənə qədər mövcud olmuşdur.

Dəfələrlə edilən yerdəyişmələr nəticəsində orijinal kilsənin və onun bilavasitə xələflərinin dəqiq yeri itirilmişdir.

Hazırda qazıntılar başa çatıb, tapıntılar laboratoriyada təhlil ediləcək və meydanın səki daşları Venesiyanın erkən xristian xarabalıqları üzərində öz yerinə qaytarılacaq.

# XII ƏSR MONASTIRININ XARABALIQLARI ÜZƏRİNDƏ MONASTIR TİKİLİB



Norveçdə katolik rahibləri yeni kilsəni təqdis ediblər və yerli katoliklər tərəfindən hörmət bəslənilən XII əsr monastırının xarabalıqları üzərində monastır tikiblər. Katoliklər ölkə əhalisinin cəmi 3%-ni təşkil edir, lakin icma sürətlə böyüyür.

Norveçdə "Ciddi rejimli sistersian-trappist ordeni"nin (Ordo Cisterciensis Strictioris Observantiae) yeganə passiv monastır kişi icması hələ ötən ilin dekabr ayında Trondheim fiordunda (qayalı sahilləri olan dar və girintili-çıxıntılı körfəz) monastır quraraq yeni kilsəni təqdis edib. Hazırda burada dörd rahib yaşayır, onlar özlərini səssiz dualara, ilahi xidmətə və saleh işlərə həsr ediblər, həmçinin bu şimal səhrasının düz qəlbində zəvvarları qəbul edirlər.

"Ciddi rejimli sistersianlar" əslən Fransada müqəddəs Bernard Klervoskinin yaşadığı Sito abbatlığındandılar, 2009-cu ildə Norveç dənizi sahillərindəki Munkebyu kəndində məskunlaşıblar. Onların ordeni 1664-cü ildə Fransanın La-Trappe şəhərindəki ("rappistlər" ləqəbi buradan gəlir) sistersian monastırının abbatı Armand Jan le Butilye de Ranse tərəfindən təsis edilmişdir. Bu reformist hərəkat digər sistersian monastırlarında qaydaların yumşaldılmasına və yüksək səviyyədə korrupsiyaya cavab olaraq ortaya çıxmışdır. Ordenin hazırkı rahibləri məkəzi Norveçin bu səhralıq bölgəsini ona görə seçiblər ki, burada XII əsrə aid hörmət bəslənilən monastırın xarabalıqları var və o, Xristianlığın qədim tarixinə, onun bu torpaqlardakı dərin köklərinə dəlalət edir.

"Keçən Pasxa bayramına qədər biz kiçik sovməəsi olan sadə bir evdə yaşayırdıq", - deyə monastırın abbatı Joel ata müsahibəsində söyləyib. "Zaman keçdikcə biz gələcək üçün daha dayanıqlı bir monastır haqqında düşünməyə başladıq. Ona görə də 2021-ci ildə monastır və kilsənin tikintisinə başladıq". Yeni kiçik kilsə maksimum 40 nəfəri qəbul edə bilər, o, Müqəddəs Məryəmə həsr olunub. Burada sistersian ordeninə mənsub əzabkeşlərin və müqəddəslərin qalıqları saxlanılır.

Yaxın və uzaq bir çox xristian qayalı çöllər arasında təxminən iki hektar ərazini tutan yeni kilsənin tikintisinə və dekorasiyasına öz töhfələrini veriblər.

Norveçdəki katolik kilsəsi azlıq təşkil etsə də (ölkə əhalisinin cəmi 3%-i), o, kifayət qədər sürətlə böyüyür və fəal gənclər hərəkatları sayəsində dinamikliyi ilə seçilir.

# ZƏRDÜŞTİLƏR İRANDA QƏDİM OD BAYRAMI SADEHİ QEYD EDİBLƏR

İranda yaşayan zərdüştilər qədim od bayramı Sadehi qeyd ediblər. Bayram günü təmizlik rəmzi olaraq başdan ayağa ağ paltar geyinmiş bir neçə zərdüşti kahin və keşiş dindar gəncləri nəhəng ayin tonqalını yandıracaqları yerə aparıblar. Tonqalın ətrafında musiqi qruplarının çıxışları, bayramın mənası, od və yeməklər haqqında ilahi öyüdlər dinlənilib.

Bu barədə "apnews" xəbər verib.



Sadeh dünyanın ən zəngin ritual bayramlarından hesab olunur. Qışın şaxtasından isti havalara keçidi müjdələyən Sadeh bayramının adı "yüz" deməkdir, yəni yaza qədər 50 gün, 50 gecə qaldığını ifadə edir. Gecə səması altında tonqallar yandıran İrandakı zərdüşti azlıq ölkənin bir çox şəhərlərində bu bayramı təntənəli şəkildə qeyd edir, qışın soyuğunun sona çatdığının və isti havaların qayıtdığının müjdəsini verirlər. Hər il zərdüşti təqvimi ilə Bəhmən ayının onuncu günü qeyd olunan Sadeh bayramı Zərdüştilik ənənəsində müqəddəs sayılan od elementini tərənnüm edir. Bayram mərasimləri zamanı məbəddə dualar oxunur, oradakı oddan çıraqlar yandırılaraq evlərə aparılır.

Sadeh bayramı ənənəsi Zərdüştilik inancının VII əsr ərəb istilasına qədər Sasani imperiyasında hakim olduğu qədim dövrlərdən bəri qorunub saxlanılır. Həmin gün zərdüştilər gün batdıqdan sonra toplaşaraq "baharaqədərki 50 gün, 50 gecə"ni qeyd edirlər. Əvvəllər bu gecə-gündüz mərasimləri iştirakçıları pis ruhlardan qorumaq məqsədi daşıyırdı. Dünyadakı bir çox digər qış festivalı kimi, Sadeh də "ölməkdə olan" günəşin "dirilməsinə" kömək edən və yeni ildə yeni qüvvə ilə parlamasını təmin edən qədim ritualları əhatə edir. Qədim zərdüştilər mərhəmətli Ahuraməzdanın əbədi düşməni olan şər ruh Əhrimanın başçılıq etdiyi zülmət və soyuğun qəddar iblislərindən qorxurdular. İki antaqonist tanrının mövcudluğu dünyanın dualistik anlayışına uyğundur, burada xeyir və şər, işıq və qaranlıq qüvvələri arasında əbədi mübarizə gedir, onun nəticəsi isə əsasən insanlardan asılıdır. Ona görə də bayram ritualları birbirinə zidd olan prinsiplərin mübarizəsini əks etdirir. Xüsusilə də, tonqal donmuş iştirakçıları qızdırır, onları soyuqdan qoruyur və pis ruhları qovur.

Zərdüştilik təxminən 3800 il əvvəl Zərdüşt peyğəmbər tərəfindən insanlara gətirilmiş monoteist bir dindir. Bu inancda xeyirxah işlərə böyük əhəmiyyət verilir və od Allahın varlığının, ruhunun simvolu olaraq ibadətlərdə mərkəzi rol oynayır. Zərdüştilər atəşpərəst olmadıqlarını vurğulayırlar, ancaq odu təmizlik və saflıq rəmzi hesab edirlər. Digər azlıqlar, o cümlədən xristianlar və yəhudilərlə yanaşı, onların parlamentdə öz nümayəndəsi var - Esfandiar Ekhtiari. Bayram ritualları zamanı Ekhtiari vurğulayıb ki, "bayram hamıya məxsusdur; o, xoşbəxtlik, insan ruhuna və təbiətinə, eləcə də hər bir insana hörmət rəmzidir".

2023-cü ildə YUNESKO Sadehi İran və Tacikistanın qeyri-maddi mədəni irs siyahısına daxil edib. Hər iki bayramda bir çox ümumi ayin və elementlərin, o cümlədən tonqal qalama ritualının mövcudluğuna baxmayaraq Sadeh bayramı Novruzdan fərqlidir. Hesab olunur ki, Sadeh ayinləri yeni əkin mövsümündə məhsuldarlığı təmin edir, əks təqdirdə Əhrimanın qoşunları bitkilərin kökünü quruducaq və onları məhv edəcək. Yalnız Günəşin istiliyi onları bu bədbəxtliklərdən xilas edə bilər, buna görə də zərdüştilər Günəş hökmdarı Mitraya müraciət edirlər.

# NORVEÇ KATOLİKLƏRİ 2030-CU İLDƏ MÜQƏDDƏS OLAFIN VƏFATININ MİNİLLİYİNİ QEYD ETMƏYƏ HAZIRLAŞIR

Norveç katolikləri 2030-cu ildə Müqəddəs Olafın vəfatının minilliyini qeyd etməyə hazırlaşırlar. O, böyük kral (995-1030), ölkənin birləşdiricisi və din əzabkeşi kimi ehtiramla yad edilir. Bu barədə məlumatı "catholicnewsagency" yayıb.

Norveç Katolik Kilsəsi bu mühüm milli yubileyə hazırlıq çərçivəsində bütün ölkə ərazisində bir çox anım mərasimi keçirəcək. Müqəddəs Olafın şəhid olduğu Trondheym prelaturasının Stiklestad şəhərində xüsusi ibadət təşkil edəcək. Norveç kralı II Olaf Haraldssonun şərəfinə iyulun 29-da qeyd edilən kilsə bayramında o, Norveçin görkəmli birləşdirici monarxı, katolik inancının şimal torpaqlarına yayılmasına böyük töhfə vermiş şəxs kimi hörmətlə yad edilir.

Norveç Katolik Kilsəsinin rəsmi saytında bildirilir ki, Olaf Vestfold hökmdarı, heç vaxt oğlunu görməyən qəddar və etibarsız kral Harald Grenskenin oğlu və birinci Norveç kralı Harald Horfagerin (850-933) nəslindən idi. Atasının yolu ilə getməyə qərar verən Olaf gənc yaşlarında vikinqlərlə birlikdə Baltikyanı ölkələrin şərqinə, daha sonra cənub-şərqdə İngiltərəyə və sonra da cənubda İspaniya sahillərinə basqınlar edir. Bir gün o, Aralıq dənizinə yola düşməyə hazırlaşarkən, "göydən bir elçi yuxuda ona görünür və səyahəti dayandırıb Norveçə qayıtmağı əmr edir; orada o, böyük hökmdar olacaqdı".

Olaf geri qayıdaraq 1013-cü ildə Normandiyanın paytaxtı Ruan şəhərinə gəlir və burada qışı hersoq II Riçardın qonağı olaraq keçirdi. Orada o, xristian inancını kəşf edir və vəftiz olunur. Frank kralı Böyük Karlı özünə nümunə götürərək Norveçə yola düşür. Vətənini danimarkalılar, isveçlilər, Leyd qrafları və digər xırda hökmdarlar arasında kiçik feodal mülklərinə parçalanmış və inancsız halda tapan Olaf onlarla döyüşməyə başlayır, nəticədə ölkəni birləşdirərək gücünü təsdiq edir və kral kimi tanınır.

Kilsənin saytında deyilir ki, "taxta çıxan Olaf ölkəni xristianlaşdırmaq üçün bütün səylərini ortaya qoyur. O, nəinki məbədlərin tikintisinə başlayır, həm də İncil ehkamlarını rəhbər tutan xristian qanunları təsis edir. Beləliklə, onun qoyduğu qanunlar hər il fidyə qarşılığında qulların əsirlikdən azad olunmasını əmr edir, çoxarvadlılığı və cümə günləri ət yeməyi qadağan edir, qadınların zorlanması və qaçırılmasına görə cəzalar tətbiq edir. Bütün bunlar ölkədə bir sıra udel hakimlərinin xoşuna gəlmədi, uzlaşmazlığına görə ona çoxlu düşmənlər qazandırdı və nəticədə onun ölümü ilə nəticələndi. Kralın ölümündən qısa müddət sonra onun bir çox düşməni həqiqət yoluna keçdi, çünki Trondheimdə həmin qış çoxları kral Olafın müqəddəs bir insan olduğuna inanırdı. Bir il sonra isə Olaf müqəddəs əzabkeş elan edildi".

Stiklestadda, Müqəddəs Olafın döyüşdə yıxıldığı təpədə zəvvarların axınının heç vaxt dayanmadığı sovməə ucaldılıb. 1164-cü ildə Papa III Aleksandr onu müqəddəslər sırasına daxil edib və o, tezliklə xalq arasında Norveçin himayədarı kimi yad edilməyə başlayıb. İsveçin Selonger şəhərindən Trondheymdəki Nidaros kafedralına qədər uzanan zəvvar marşrutu - müqəddəs Olaf cığırı bütün xristian dünyasında məşhurdur. 2010-cu ildə bu cığır "Avropa Şurasının mədəni marşrutu" statusu almışdır.

Yubileyə hazırlıq dövründə Trondheym prelaturası hər il "Missiya 2030" adlı iclas keçirəcək. İlk belə görüş bu il aprelin 13-də Trondheymdəki Müqəddəs Olaf kilsəsində baş tutması planlaşdırılır.

# Novruz gəlir...



### Su çərşənbəsi

Taleyimizə təmənnasız bəxş olunan elə günlər və bayramlar var ki, onların təntənəsinə daxi-lən, ruhən həmişə hazır oluruq. Belə qədim və milli bayramlardan biri də hər il xüsusi həvəslə qeyd etdiyimiz NOVRUZdur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bu bayramdakı məram təzə ili, baharın ilk gününü qarşılamaqdan ibarətdir. Gecə ilə gündüzün bərabərləşdiyi vaxtdan qış bizimlə vidalaşır, yaz gəlir. Əslində, yazın, baharın ilk günü olan Novruz təbiətin canlanması, torpağın oyanması ilə müjdələyir bizi...

Novruz inancının təməlini dörd ünsür - su, od, yel və torpaq təşkil edir. Ona görə də xalqımız bu bayrama təntənəli şəkildə vaxtından bir ay əvvəl hazırlaşır, hər həftənin çərşənbə günlərini ardıcıllıqla "Su", "Od", "Yel" və "Torpaq" çərşənbələri adı ilə qeyd edirlər.

İnanca görə, birinci çərşənbədə qış əlaməti qar-buz əriyir, su mənbələri təzələnib aşıb-daşır. İkinci çərşənbədə Günəş torpağı qızdırır, növbəti çərşənbədə əsən yel oyanmış suyu, odu hərəkətə gətirir. Dördüncü çərşənbədə isə torpaq tam oyanır və insanlar ilk yaz əkini mərasiminə başlayırlar.

Xalqımızın təmtəraqlı şəkildə qeyd etdiyi çərşənbələrin birincisi, yuxarıda da qeyd etdiyimiz kimi, "Su çərşənbəsi"dir. Ona "Əzəl çərşənbə" "Sular Novruzu" da deyirlər. Bu çərşənbə qışın arxada qalmasının göstəricisidir. Çünki "kiçik çillə" öz yerini "Boz Ay"a verir və havalar, böyüklərimiz demişkən, "ağara-bozara" düzəlməyə başlayır. İlk çərşənbənin adının su ilə əlaqələndirilməsi təsadüfi deyil. Ulularımız demişlər: "Sulu ev abad, susuz ev bərbad olar". Su həyatın canlanmasına, təbiətin oyanmasına təkan verən başlıca ünsürlərdəndir.

Qədim inanca əsasən, Su çərşənbəsində Günəşin şəfəqdə göründüyü andan etibarən, su təzə və müqəddəs hesab edilir. Rəvayətə görə, bu vaxt suda yuyunanlar arzularına çatırlar.

Su çərşənbəsində dan yeri söküləndə insanlar çaya gedir, axar suda əllərini, üzlərini yuyur, suyun üzərindən hoppanaraq "ağırlığım-uğurluğum suya" - deyib, xəstəliklərin, mənfi enerjinin suya düşəcəyini və yeni ildə sağlam olacaqlarını düşünürlər. Bu çərşənbədə suyun dağılmasını xeyrə yozarlar. İnanca görə, süfrədəki suyun aşması həmin ilin bolluq içində keçəcəyinə işarədir.

### Od çərşənbəsi

Boz Ayın dörd müqəddəs çərşənbəsindən ikincisi Od çərşənbəsidir. Novruzun əsas rəmzlərindən olan od uzun və soyuq qışdan sonra xalqın gözlədiyi istiliyi təmsil edir. Xalq arasında "Üskü çərşənbəsi" də adlandırılır. Bu çərşənbə qədim dini baxışlarla bağlı olub, odu qoruyub saxlamaq inancı ilə əlaqədardır. Qədim dövrlərdə belə bir təsəvvür varmış ki, insanlar Günəşi, odu nə qədər əzizləyib oxşasalar, təbiət də o qədər tez isinər və oyanar.

Qədim dini inanca görə, insanın yaradılışında rolu olan dörd əsas ünsürdən biri oddur. Odun qorunub saxlanması, əldə olunması və bununla insan həyatının dəyişməsi fikri od çərşənbəsində rəmzi olaraq bu və ya digər şəkildə özünü əks etdirir. Tarix boyu xalqımız Od çərşənbəsi ilə bağlı ayinləri qoruyub saxlayaraq, gündəlik məişətinə tətbiq etmiş və onu yeni əmək mövsümünün başlanğıcı kimi qəbul etmişdir.

Bu çərşənbədə ocaq çatıb tonqal qalayar və üstündən atılaraq "Ağırlığım, uğurluğum odda yansın" - deyərmişlər. Bununla da ötən ildə baş verən uğursuzluqların, sanki odda yandırıldığına inanarmışlar. Bu, odun müqəddəsliyi inancı ilə bağlı imiş.

Od çərşənbəsində baharın gəlişini qeyd etmək məqsədilə "Kos-kosa" kimi ənənəvi xalq oyunu keçirilir. Bunun mənası qışın qovulması, yazın isə alqışla qarşılanmasıdır. Oyunda ömrünü başa vurmuş qışın simvolik obrazı kosa, yazın rəmzi isə keçəldir. Burada kosa ilə keçəl arasında gedən mübarizənin, sonunda keçəlin zəfər çalması yazın qış üzərində qələbəsi kimi təsəvvür edilir.

Digər çərşənbələr kimi od çərşənbəsində də evlərdə müxtəlif yeməklər bişirilir və süfrəyə şirniyyatlar qoyulur. Bu, yeni ilin bollu, bərəkətli və sevinc dolu keçməsinə işarədir.

### Yel çərşənbəsi

Novruz bayramının üçüncü çərşənbəsi Yel çərşənbəsi adlanır. Mifik inanca görə, Yel çərşənbəsində əsən soyuq və isti küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində küləyin bir neçə dəfə istiqamətini dəyişməsi onun özünü təmizləməsi kimi dəyərləndirilir. Bu çərşənbə axşamında sanki yuxudan oyanan külək dolaşaraq suyu, odu hərəkətə gətirir.

Yel çərşənbəsi həm də ilaxır çərşənbəyə hazırlıq deməkdir. Xalq arasında ona Yel çərşənbəsi, Yelli çərşənbə, Küləkli çərşənbə, Hava çərşənbəsi, Külək oyadan çərşənbə də deyirlər.

Baharın gəlişi özünü son çərşənbələrdə daha çox büruzə verməyə başlayır. Məsələn, havaların dəyişməsi, durmadan həzin küləklərin əsməsi insan təsəvvüründə torpağın yavaş-yavaş oyanmasını canlandırır. Bu da əkinçiliklə və kənd təsərrüfatı ilə məşğul olanların həyatında sevindirici bayram təəssüratı oyadır.

Yel çərşənbəsi ulularımızın və müasirlərimizin həyata münasibətində, adət-ənənəmizdə əksini tapan bəzi fərqliliklərə görə digər çərşənbələrdən seçilir. Bu çərşənbədə xanımlar evdə təmizlik işlərinə başlayırlar. Yorğan-döşəklər havaya çıxarılır, təzə bahar nəfəsilə təravətləndirirlər. Ev-eşikdəki əşyalar – xalça-palazlar çırpılır, qapı-pəncərələr silinir və s.

Küləklə bağlı bir çox qədim xalq deyimləri, nəğmələr, atalar sözləri və məsəllər bu günədək yaşamaqdadır. Onlardan bəziləri belədir: "Yel üfürüb şişirtdiyini göyə qaldırar", "Yelin zarafatı qovmaqla başlar", "Yelə verdiyin düşmənə qismət olar", "Yelin işi elnən deyil, külnəndir", "Yel olmasa, sel də olmaz" və s.

Beləliklə, Yel çərşənbəsinin əsas ünsürü olan Yel – hava, nəfəs bizi mənəvi cəhətdən sağlam ab-havaya köklənməyə, saf ruha yiyələnməyə çağırışdır. Çünki Yel özü ruhun ifadəsidir. Təmiz ruh daşıyıcısı olub özümüzü ruhən təmizləməyimizin bayramıdır Yel çərşənbəsi.

### Torpaq çərşənbəsi

Baharın gəlişini bildirən çərşənbələr arasında təntənə ilə qeyd olunanı Torpaq çərşənbəsi el arasında "Boz ay"ın sonuncu çərşənbəsi kimi də qəbul edilir və ona "Yer çərşənbəsi", "İlaxır çərşənbə" də deyirlər. Bu çərşənbədə təbiət canlanır, ağaclar qış yuxusundan oyanaraq tumurcuqlamağa başlayır, el-oba əkinə hazırlaşır. Bir sözlə, yazın gəlişi xalqda işgüzarlığı artırır.

Xalq Torpaq çərşənbəsini spesifik xüsusiyyətlərinə və Novruz bayramına yaxın olduğuna görə xüsusi təntənə ilə qeyd edir. Qədim inanca görə, İlaxır çərşənbə Novruz bayramı ilə üst-üstə düşürsə, ilin daha uğurlu keçəcəyi gözlənilir. Bu çərşənbədə paxlava, şəkərbura, qoğal və bir çox şirniyyatlar hazırlanır, bayram süfrəsi bəzədilir. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şirin keçməsinə işarədir. Ənənəyə görə, Torpaq çərşənbəsində süfrəyə acı və duzlu yeməklər qoymazlar. Süfrəyə bərəkətli və məsələn, düyü, yarma, noxud kimi bişirdikdə artan ərzaqlardan hazırlanan yeməklər düzülməlidir. Qədim inanca görə, İlaxır çərşənbədə bərəkət sayılan nemətləri - duz, od, çörək və suyu başqasına vermək olmaz.

Bayram xonçasının ortasına səməni qoyulur, ətrafı isə boyanmış yumurta, həmçinin qoz, fındıq, badam kimi çərəz növləri ilə bəzədilir. Novruz bayramının rəmzlərindən sayılan və əvvəlki çərşənbələrdən cücərdilən səməni İlaxır çərşənbədə tam göyərir. Rəvayətə görə, səməni qoyulanda niyyət edilibsə, arzu-diləyinin çin olacağı axır çərşənbədə bilinəcək. Yəni, səməni yaxşı göyərərsə, arzular həyata keçəcək.

Torpaq çərşənbəsi çərşənbələrin xalq ayinləri, oyun və şənlikləri ilə də ən zəngin olanıdır. Çünki bu günün mərasimləri həm su, od və yelə, həm də torpağa inancı əks etdirir. Bu çərşənbədə müxtəlif ayinlər icra edilir, nəğmələr, bayatılar oxunur. Adətən, mərasimlər səhər tezdən başlayır və gecəyədək davam edir. İlaxır çərşənbənin axşam şənlikləri daha maraqlı keçir: bacalardan torbalar sallanır, papaq atılır, qapı pusulur, evlərdə şamlar yandırılır və s.

Sonuncu çərşənbə günü xanımlar çillə çıxarmaq üçün çay qırağına gedir, suyun üzərindən tullanırlar. Həmçinin, həmin axşam digər çərşənbələrdə olduğu kimi, tonqallar qalanır. Lakin bu çərşənbənin tonqalları digərlərindən fərqlənir. Çünki həmin gün tonqal qalamaq mərasimi daha təmtəraqla keçirilir. Hamı tonqalın başına toplaşaraq istisinə qızınır.

Adətə görə, Torpaq çərşənbəsində hamı evində olmalıdır. Övladlar onlardan ayrı yaşayan valideynlərinə baş çəkərək öz evlərinə qayıtmalıdırlar.

Torpaq və Torpaq çərşənbəsi ilə bağlı bir çox atalar sözləri, bayatılar, oxşamalar və inanclar da vardır: "torpağa xor baxsan, o sənə kor baxar", "torpağa əyilən namərdə əyilməz", "Axır çərşənbə axşamı küsülülər barışarlar", İlaxır çərşənbə gecəsi bəd danışmaq olmaz" və s.

Baharı qarşılayan hər kəsə su kimi saf, od kimi mübariz və parlaq həyat, torpaq kimi bərəkətli ömür arzulayırıq!

# QISA-QISA



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin fevral ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkliatçılığı ilə Kürdəmir şəhər Peşə Liseyində "Yeniyetmə və gəncləri dini radikalizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkliatçılığı ilə Ucar rayonunun Pirkənd kənd tam orta məktəbində "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkliatçılığı ilə Oğuz şəhər "Cümə" məscidində "2023-cü ilin yekunları və 2024-cü ildə qarşıda duran vəzifələr" mövzusunda;

**2 fevral** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Beyləqan Rayon İcra Hakimiyyəti (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Beyləqan rayonu üzrə qazılığının birgə təşkilatçılığı ilə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin yeri" mövzusunda;

**5 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay şəhər "Mərkəz" məscidində "2023-cü ilin yekunları və 2024-cü ildə qarşıda duran vəzifələr" mövzusunda;

**8 fevral** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və QMİ-nin Qazax rayon qazılığının birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax rayon Gənclər və İdman Sektorunun (GİS) təşkilatçılığı ilə Qax rayon Qıpçaq kənd tam orta məktəbində "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyətləri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyanda "Gələcəyimizi zərərli vərdişlərdən qoruyaq" mövzusunda;

**9 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucarda "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gədəbəy Peşə Liseyində "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux RİH-in təşkilatçılığı ilə rayonun Lək kənd tam orta məktəbində "Gənclərimizi dini cəhalət, xurafat və radikalizmin təsirlərindən qoruyaq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala rayon sektorunun təşkilatçılığı ilə Əliabad qəsəbəsi 2 №-li tam orta məktəbində "Qloballaşma dövründə gənclər arasında milli ailə dəyərlərinin əhəmiyyətinin təbliği, onun qorunması və möhkəmləndirilməsi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ağcabədi şəhər 6 saylı tam orta məktəbində "Narkomaniya və zərərli vədişlərə qarşı mübarizə" mövzusunda;

**12 fevral** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağstafa rayonunda "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin yeri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Alpout kənd 2 saylı tam orta məktəbində "Zərərli vərdişlər və onların fəsadları" mövzusunda;

**13 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy RİH-in təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması, həmçinin onunla mübarizə" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad və Saatlı rayonlarında "Erkən nikahın və qohum evliliyinin ana və uşaq sağlamlığına mənfi təsirləri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə Gəlmə kəndində "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Samux rayonunun Ziyadlı kənd tam orta məktəbində "Erkən nikahın fəsadları" mövzusunda;

**14 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonunun Çallı kənd məscidində "Dini radikalizmi meydana gətirən səbəblər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən şəhəri 1 nömrəli peşə məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şabran rayonu Şahnəzərli kəndi Ə.Quliyev adına tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər M.Mehdizadə adına 4 nömrəli xarici dil təmayüllü məktəb-liseydə "Dini radikalizmi meydana gətirən səbəblər" mövzusunda;



**15 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar rayon Polis Şöbəsi və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Ucar rayon sektorluğunun birgə təşkilatçılığı ilə rayonun Alpı kənd tam orta məktəbində "Məktəblilərin mənəvi dünyagörüşünə təsir edən amillər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin və Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qax rayon Turaclı kənd tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu Rayon GİS-in birgə təşkilatçılığı ilə şəhər Aslan Nadirov adına 1 nömrəli məktəb-liseydə "Narkomaniyaya yox deyək" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-in təşkilatçılığı ilə rayonda "Erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda;

**16 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 5 saylı tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in təşkilatçılığı ilə "Milli dövlətçiliyimizin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in təşkilatçılığı ilə rayonun M.Cəfərov adına Pənahlı kənd tam orta məktəbində "Yeniyetmə və gənclərin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Qazax RİH, Regional Gənclər və İdman İdarəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Qazax Dövlət Sosial-İqtisadi Kollecində "Dini radikalizmin fəsadları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi, Gədəbəy RİH və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Gədəbəy rayon Qoşabulaq kənd 2 nömrəli tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Ağcabədi şəhər Ü.Hacıbəyov adına 7 saylı tam orta məktəbində "Narkomaniya və zərərli vədişlərə qarşı mübarizə" mövzusunda;



**19 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və rayon GİS-in birgə təşkilatçılığı ilə Siyəzən şəhər Gənclər Mərkəzində "Dini radikalizm cəmiyyət üçün böyük təhlükədir" mövzusunda;

**20 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Qovlarsarı kənd tam orta məktəbində "Zərərli vərdişlərə yox deyək!" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində "Erkən nikahın qarşısının alınmasında dini icmaların rolu" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayon Çiyni kənd tam orta məktəbində "Ailə dəyərlərimiz milli dəyərlərimizdir" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saaatlı rayonunda "Korrupsiyaya qarşı mübarizə hər birimizin vətəndaşlıq borcudur" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə RİH-in birgə təşkilatçılığı ilə Bərdə Peşə Liseyində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər N saylı hərbi hissədə "Vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolu" mövzusunda;

**21 fevral** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Ağdaş rayon sektorunun birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 3 saylı tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Cəlilabad RİH-in təşkilatçılığı ilə rayonun Kazımabad kənd tam orta məktəbində "Erkən nikahlar ailə dəyərlərinə xələl gətirir" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Katex kənd 3 saylı tam orta məktəbində "Şuşa: İslam dünyasının mədəniyyət paytaxtı" mövzusunda; Zaqatala rayonunda "Dini icmaların ətraf mühitin qorunması, ekoloji problemlərin həlli məsələsində aktiv iştirakı" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qəbələ şəhər 1 saylı tam orta məktəbdə "Mənəvi dəyərlərin qorunmasında gənclərin rolu" mövzusunda; Naftalanda "Dini radikalizmin, zərərli vərdişlərin mənfi təsirləri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Hacıqabulda "Dini radikalizmə qarşı mübarizə" mövzusunda; Daşkəsən rayonunu Yuxarı Daşkəsən qəsəbə Z.Bağırov adına tam orta məktəbində "Dini radikalizm: insan hüquq və azadlıqlarına təhlükədir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Astara rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə rayonun Burzuband kənd tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və fəsadları" mövzusunda; Astara rayonu Lovayın kənd tam orta məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda;

**22 fevral** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə rayonun Cəmcəmili kənd Rauf Babaşov adına tam orta məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər

davamı səh. 14

# QISA-QISA

əvvəli səh. 13



ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Göyçay RİH, Rayon Polis Şöbəsi və Mərkəzi Aran Regional Təhsil İdarəsinin Göyçay rayon sektorluğunun birgə təşkilatçılığı ilə Göyçay şəhər 3 saylı tam orta məktəbində "Zərərli vərdişlər və narkomaniya məktəblilərin gözü ilə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Qax Rayon Polis Şöbəsi və rayon GİS-in təşkilatçılığı ilə Qax Peşə Liseyində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Samux şəhər S.Əliyev adına 2 nömrəli tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq!" mövzusunda;

**23 fevral** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Şəhər Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 42 nömrəli məktəbində "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; Balakən rayonu Kortala kənd məscidində "Müqəddəs dinimizdə Vətən sevgisi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayon Sərkar kənd tam orta məktəbində "Radikal dini təsirlərdən qorunmağın yolları" mövzusunda;

**27 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Qusar RİH, Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Şimal regional Mərkəzinin birgə təşkilatçılığı ilə Qusar şəhərində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər M.P.Vaqif adına 8 nömrəli tam orta məktəbdə "Radikal dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Danaçı kənd 1 №-li tam orta məktəbində "Tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmləndirilməsindəki önəmi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboy rayonunda "Yad təsirlərə qarşı mübarizədə din xadimlərinin rolu" mövzusunda; Samux şəhər 1 saylı tam orta məktəbində "Narkomaniyaya qarşı mübarizə" mövzusunda$

**28 fevral** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, RİH və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Şimal regional Mərkəzinin təşkilatçılığı ilə Quba rayonunun Hacıhüseynli kənd tam orta məktəbində "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və RİH-in təşkilatçılığı ilə Balakən rayonu Qurban Nağıyev adına Kortala kənd tam orta məktəbində "Milli dövlətçiliyimizin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar rayonu Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Ucar rayonu Rəstəcə kənd tam orta məktəbində "Dini fanatizm və radikalizmin fəsadları" mövzusunda; DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə "Qızları təhsildən yayındırmağın hüquqi və mənəvi məsuliyyəti" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Çobanabdallı kənd tam orta məktəbində "Erkən nikahın fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rayon sektorunun təşkilatçılığı ilə Xaçmaz rayonunun Köhnə Xaçmaz kənd tam orta məktəbində "Uşaqların humanizm və tolerantlıq ruhunda tərbiyəsinin mənəvi aspektləri" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonunun Ləkçıplaq kənd tam orta məktəbində "Zərərli vərdişlər və onların həyatımıza neqativ təsiri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və GİS-in təşkilatçılığı ilə Qax rayon Şotavar kənd tam orta məktəbində "Yeniyetmə və gəncləri dini radikalizmdən qoruyaq" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Qubadlı RİH-in təşkilatçılığı ilə Qubadlı şəhər 2 nömrəli tam orta məktəbində "Dini fanatizm, radikalizim və ekstremizmin mahiyyəti və fəsadları'' mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Rayon Təhsil sektorunun birgə təşkilatçılığı ilə Şiləvar kənd tam orta məktəbində və Lənkəran rayonu Digah kənd tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizmdən qoruyaq!" mövzusunda;

**29 fevral** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə rayonun Ə.Məmmədov adına Üçtəpə kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizədə təhsilin rolu" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətlərinin, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən müəllimlər və şagirdlər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Çıxışlar zamanı məktəblilərin dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərə diqqət çəkilib. Dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükə yarada biləcəyi vurğulanıb. Vətənpərvərlik ruhu aşılayan dəyərlərimizin məktəblilərin formalaşmasındakı önəmindən bəhs edilib. Humanist və tolerant gəncliyə sahib olmaq üçün təhsil və təlim-tərbiyənin önəminə toxunulub.

Natiqlər bəşəriyyəti narahat edən məsələlərdən olan dini radikalizm və onun fəsadlarından danışıblar. Müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat veriblər. Ölkəmizdə dini radikalizmə qarşı aparılan mübarizə tədbirlərindən bəhs ediblər. Dini məzhəbçilik meyillərinin milli birliyə və



dini təhlükəsizliyə təsirini izah ediblər.

Tədbirlərdə zərərli vərdişlər və onların fəsadları barədə məlumat verilib. Ölkəmizdə yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması istiqamətində həyata keçirilən işlər diqqətə çatdırılıb. Narkomaniyanın qurbanına çevrilmiş insanların həyat tərzi, onların üzləşdiyi çətinliklər, səhhətlərində yaranan problemlərdən bəhs olunub. Gənclərin zərərli vərdişlərdən çəkinmələrində bu cür tədbirlərin keçirilməsinin vacibliyi vurğulanıb.

Çıxışlarda erkən nikah problemindən və onun fəsadlarından da ətraflı bəhs edilib. Bildirilib ki, bu gün bütün dünyada olduğu kimi ölkəmizdə də erkən nikahın doğurduğu fəsadlar və cəmiyyətə vurduğu ziyan mühüm və aktual problemlərdən biri olaraq qalır. Erkən nikahla bağlı problemlərin aradan qaldırılması baxımından maarifləndirici tədbirlərin təşkili, yeniyetmə və gənclərlə müntəzəm olaraq görüşlərin keçirilməsi, onlara milli-mənəvi dəyərlərin aşılanmasının böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb. Qeyd olunub ki, ölkəmizdə əhalinin, xüsusilə də yeniyetmə və gənclərin erkən nikahın, qohum evliliyinin mənfi təsirlərinə dair məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi önəm verilir, bu istiqamətdə silsilə tədbirlər keçirilir. Diqqətə çatdırılıb ki, qızların erkən yaşda evlənməsi onların təhsildən yayınmasına şərait yaradır, uşaqların həyat və sağlamlığını təhlükə qarşısında qoyur.

Natiqlər ailə dəyərlərinin xalqımızın milli-mənəvi dəyərlərinin qoruyucusu və genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynadığını bildiriblər. Qloballaşma dövründə gənclər arasında milli ailə dəyərlərinin əhəmiyyətinin təbliği, onun qorunması və möhkəmləndirilməsi istiqamətində görülməli işlər barədə geniş məlumat veriblər.

Çıxışlar zamanı vətənpərvərlik ruhunun yüksəldilməsində mənəvi və dini dəyərlərin rolundan bəhs olunub. Qeyd edilib ki, 44 günlük Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatmasını təmin edən mühüm amillərdən biri də məhz gənclər arasında vətənpərvərlik ruhunun aşılanması ilə bağlı uğurlu işin aparılmasıdır.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlərdə həmçinin ətraf mühitin qorunması, ekoloji problemlərin həlli və bu istiqamətdə din xadimlərinin üzərinə düşən məsələlərdən danışılıb.

Tədbirlərin yekununda DQİDK-nın sifarişi ilə ərsəyə gəlmiş sənədli filmlər nümayiş olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# QUBADA "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ AĞACƏKMƏ KAMPANİYASI TƏŞKİL OLUNUB



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı bölgələrdə uğurla icra edilməkdədir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin təşəbbüsü, Quba rayonunda fəaliyyət göstərən dini icmaların təşkilatçılığı ilə ağacəkmə kampaniyası təşkil olunub.



# BÖLGƏLƏRDƏ XOCALI FACİƏSİNİN 32-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ANIM TƏDBİRLƏRİ KEÇİRİLİB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələrinin təşkilatçılığı ilə Xocalı faciəsinin 32-ci ildönümü münasibətilə bölgələrdə silsilə tədbirlər keçirilib.*

**22 fevral** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir şəhər Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Xocalı soyqırımı-tarixin qan yaddaşı" mövzusunda Kürdəmirdə; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və Mil-Muğan Regional Gənclər və İdman İdarəsinin Saatlı rayonu üzrə sektorunun təşkilatçılığı ilə Saatlıda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xocalı - bir millətin kədəri" mövzusunda Ucar Gənclər Evində;

**23 fevral** – DQİDK-nın Zaqatala bölgə şöbəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala rayon sektorunun təşkilatçılığı ilə rayonun Yuxarı Tala kənd 2 №-li tam orta məktəbində; DQDİK-nın Şəki bölgəsi üzrə şöbəsi və QMİ-nin Şəki-Oğuz bölgəsi üzrə qazılığının təşkilatçılığı ilə



Şəki İslam Kollecində; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Şəhər Təhsil Sektorunun təşkilatçılığı ilə Yevlax şəhəri 1 nömrəli tam orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İmamzadə Ziyarətgah məscidi dini icmasında;

**Həmçinin fevralın 25-i və 26-sında** da Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri, Oğuz, Abşeron, Quba, Göyçay, Zərdab, Şamaxı, İsmayıllı, Ağsu və Tovuz rayonlarında baş tutub.

Tədbirlərdə Xocalı qurbanlarının və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışçılar Xocalı faciəsi haqqında geniş məlumat veriblər. Qeyd olunub ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün dünyaya, bəşəriyyətə qarşı yönəldilib. Vurğulanıb ki, bu faciə nəticəsində 613 nəfər həlak olub, 487 nəfər isə yaralanıb. O da diqqətə çatdırılıb ki, 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində 32 il əvvəl soyqırımının baş verdiyi Xocalı işğaldan azad olunub.

# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASININ ÜZVLƏRİ HADRUT QƏSƏBƏSİNDƏ YERLƏŞƏN ALBAN KİLSƏLƏRİNİ ZİYARƏT EDİBLƏR

Fevralın 26-da Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının üzvləri Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən Alban kilsələrini ziyarət ediblər. Kilsələrdə Xocalı faciəsinin 32-ci ildönümü ilə bağlı anım tədbirləri keçirilib, şəhidlərin ruhuna dualar oxunub.



# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**«Zaqatala rayonu Uzuntala kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116D – 679

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Vasalov İlham Hacıyov oğlu, Qudavasov Abdumüslüm Abdullətif oğlu, Qudavasov Yusif Şaban oğlu, Çalabov Əli Şaban oğlu, Qarayev Şaban Ramazan oğlu, Rəcəbov Mohuma Məmməd oğlu, Nəsibov Murad Xəlil oğlu, Rəcəbov Ramil Kamil oğlu, Vasalov Hacıyov Ramazan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qudavasov Kəmaləddin Abdulətif oğlu, Qudavasov Məmməd Abdulətif oğlu, Qudavasov Lətif Abdulmüslim oğlu, Suruyev Hüseyn Əhməd oğlu, Əliyev Əli Şamil oğlu, Qarayev İbrahim Abdulla oğlu, Suriyev Sabir Cücüy oğlu, Mitiləyev Şamil Aydın oğlu, Həsənov Əli İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Vasalov İlham Hacıyov oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Həsənov Ramazan İsmayıl oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 14 fevral 2024-cü il

**«Zaqatala rayonu Muxax kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 176

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Murtuz Şaban oğlu, Əzizov Kərim Seyfulla oğlu, Qurbanov Saleh İsa oğlu, Rəcəbov Abdurahman Məhəmməd oğlu, Yusubov Abdurahman Yusif oğlu, Mehdiyev Xalaxverdi Osman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov Elçin Ramazan oğlu, Yusubov İsa Abdurahman oğlu, Tahirov İbrahim Hacı oğlu, Əliyev Mansur Mustafa oğlu, Qəniyev Tofiq Məhəmməd oğlu, Davudov Rahib Tahir oğlu, Qədirov Bahaddin Məhəmməd oğlu, İmranov İlham Canqa oğlu, İsayev Mübariz Mohuma oğlu, Şabanov Məhəmməd İsa oğlu, Məmmədov Məmməd Zakir oğlu, Əliyev Məhəmməd İsmayıl oğlu, Əhmədov Seyidməhəmməd Abdulla oğlu, Rəcəbov Ceyhun Əhməd oğlu, Qurbanov Nazim Saleh oğlu, Əliyev Akif Həzrətəli oğlu, Əliyev Cuma Yusif oğlu, Əliyev Hafiz Cuma oğlu, Həmzəyev Şəmsəddin Qurban oğlu, Əhmədov Nail Şaban oğlu, Əhmədov Şaban Abdulla oğlu, Davudov Həbibullah İsmayıl oğlu, Xəlilov Valeh Saleh oğlu, Qurbanov Zülfüqar Bayraməli oğlu, Məmmədov Məhəmmədşəfi Məhəmməd oğlu, Yusubov Abid Abdurahman oğlu, Uluxanov Uluxan Abdulla oğlu, Əhmədov Məmməd Qurban oğlu, Orucov Elmar Əli oğlu, Orucov Şahin Həsən oğlu, İbrahimov Rizvan Nəcməddin oğlu, Ramazanov Süleyman Kərim oğlu, Əliyev Tacəddin Nəcməddin oğlu, Yaqubov Vüsal Rasul oğlu, Hudulov Mahmud Əmtəzə oğlu, Putayev Ceyhun İbrahim oğlu, Yusubov Habil Amin oğlu, Əzizov Fariz Kərim oğlu, Mahmudov Abdulla Həsən oğlu, Abakərov Aydın Abakər oğlu, Tahirov Rizvan Mahmud oğlu, Qurbanov Məhəmməd Seydəhməd oğlu, Mamedov Aydın İsmayıl oğlu, İsayev İsmayıl İsa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Rəcəbov Abdurahman Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

İbrahimov Elçin Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 fevral 2024-cü il

**«İmişli rayonu Qaravəlili kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 05 dekabr 2018-ci il
Qeydiyyat №-si: 100118A – 876

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Mahmudov Ərəstun Hilal oğlu, Əliyev Xalıq Rəsul oğlu, Babaşov Hörmət Mehdi oğlu, Mirzəyev Gülhüseyn Əlabbas oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Quliyeva Tamilə Gürşad qızı dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Mahmudov Ərəstun Hilal oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Quliyev Şahəddin Tahir oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Dəyişikliklərin qeydiyyat tarixi: 21 fevral 2024-cü il

**Ləğv olunmuş dini qurumlar**

"Şirvan şəhər "İmam Əli" məscidi" dini icması
Qeydiyyat tarixi: 19.06.2015-ci il
Qeydiyyat №-si: 100115A-601

"Şirvan şəhər "İmam Əli" məscidi" dini icması təsisçilərinin 06.02.2024-cü il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 14 fevral 2024-cü ildə qeydə alınıb.

CƏMİYYƏT və DİN
№ 02 (388) FEVRAL 2024-cü il

# HAVA ÇİRKLİLİYİ ALZHEİMER XƏSTƏLİYİNİN İNKİŞAFINA SƏBƏB OLUR



Nəqliyyatla əlaqəli hava çirkliliyi Alzheimer xəstəliyinin inkişafına və əlamətlərinin daha da artmasına şərait yaradır.

"knowridge" saytı xəbər verir ki, bununla bağlı Emori Universitetinin doktoru Anke Huelsin rəhbərliyi ilə tədqiqat aparılıb.

Tədqiqatda ortalama yaşı 76 olan 224 nəfərin öldükdən sonra baş toxumaları araşdırılıb. Nəticədə diametri 2,5 mikrondan az zərərli hissəciklərin təsirinə daha çox məruz qalan şəxslərin beyinlərində Alzheimer xəstəliyinin əlaməti olan amiloid lövhələrinin səviyyəsinin artması müşahidə edilib.

Tədqiqat müəllifləri havanın çirklənməsi ilə neyrodegenerativ xəstəliklər arasındakı əlaqəni tam aydınlaşdırmaq və profilaktik tədbirləri genişləndirmək üçün əlavə araşdırmaların vacibliyini vurğulayıblar.

# İLON MASKIN NOBEL SÜLH MÜKAFATINA NAMİZƏDLİYİ İRƏLİ SÜRÜLÜB



Amerikalı milyarder, "SpaceX" kompaniyasının qurucusu və "X" sosial şəbəkəsinin sahibi İlon Maskın Nobel Sülh Mükafatına namizədliyi irəli sürülüb.

"Daily Mail" qəzetinin məlumatına əsasən, amerikalı sahibkarın mükafata namizədliyini irəli sürən norveçli deputat Marius Nilsen bunu İlon Maskın cəmiyyətdə həyatın yaxşılaşdırılmasına töhfə verən texnologiya şirkətləri qurduğu ilə əsaslandırıb.

Nobel Sülh Mükafatının qalibi oktyabr ayında elan olunacaq.

Qeyd edək ki, bundan öncə ABŞ-nin sabiq prezidenti Donald Tramp və NATO-nun Baş katibi Yens Stoltenberq də ərəb ölkələri ilə İsrail arasında münasibətlərin normallaşmasına yönələn "İbrahim Sazişi"nin imzalanmasına kömək etdikləri üçün bu mükafata namizəd irəli sürülüblər.

# ARAŞDIRMA: TELEFON VƏ KOMPÜTER EKRANLARINDAN GƏLƏN MAVİ İŞIQ YAŞLANMANI SÜRƏTLƏNDİRİR



Telefon və kompüter ekranlarından gələn mavi işıq yaşlanmanı sürətləndirir. Bu barədə "Euronews" xəbər verib.

Araşdırmada bildirilir ki, mavi işıq-şüa piylənməyə və psixoloji xəstəliklərə səbəb ola bilər. Həmçinin televizor, kompüter və smartfon tipli cihazların mavi işığına məruz qalmaq yaşlanma prosesini sürətləndirir.

"Frontiers in Aging" jurnalında dərc edilən araşdırmaya görə, hər gün istifadə edilən bu tipli cihazlardan əks olunan mavi işığa həddindən artıq məruz qalmaq dəri və yağ hüceyrələri ilə yanaşı, bədənin müxtəlif hüceyrələrinə də zərər vurur.

Milçəklər üzərində aparılan tədqiqatda məlum olub ki, bu həşəratın hüceyrələrində insan hüceyrələrinə oxşar kimyəvi maddələr mövcuddur. Tədqiqat nəticəsində milçəklərdə erkən yaşlanmaya səbəb olan kimyəvi dəyişikliklər müşahidə olunub.

Mavi işığın insan hüceyrələrinə təsirini araşdırmaq üçün yeni tədqiqata ehtiyac olduğu bildirilib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Mart - 2024)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:54 | 07:14 | 12:53 | 16:49 | 18:47 | 19:47 |
| 2 | 05:52 | 07:12 | 12:53 | 16:50 | 18:48 | 19:48 |
| 3 | 05:51 | 07:11 | 12:53 | 16:51 | 18:49 | 19:49 |
| 4 | 05:49 | 07:09 | 12:52 | 16:52 | 18:50 | 19:50 |
| 5 | 05:48 | 07:07 | 12:52 | 16:53 | 18:51 | 19:52 |
| 6 | 05:46 | 07:06 | 12:52 | 16:54 | 18:52 | 19:53 |
| 7 | 05:45 | 07:04 | 12:52 | 16:54 | 18:53 | 19:54 |
| 8 | 05:43 | 07:03 | 12:51 | 16:55 | 18:54 | 19:55 |
| 9 | 05:41 | 07:01 | 12:51 | 16:56 | 18:55 | 19:56 |
| 10 | 05:40 | 07:00 | 12:51 | 16:57 | 18:56 | 19:57 |
| 11 | 05:38 | 06:58 | 12:51 | 16:58 | 18:57 | 19:58 |
| 12 | 05:36 | 06:56 | 12:50 | 16:59 | 18:59 | 19:59 |
| 13 | 05:35 | 06:55 | 12:50 | 17:00 | 19:00 | 20:00 |
| 14 | 05:33 | 06:53 | 12:50 | 17:01 | 19:01 | 20:01 |
| 15 | 05:31 | 06:51 | 12:49 | 17:01 | 19:02 | 20:03 |
| 16 | 05:30 | 06:50 | 12:49 | 17:02 | 19:03 | 20:04 |
| 17 | 05:28 | 06:48 | 12:49 | 17:03 | 19:04 | 20:05 |
| 18 | 05:26 | 06:47 | 12:49 | 17:04 | 19:05 | 20:06 |
| 19 | 05:25 | 06:45 | 12:48 | 17:05 | 19:06 | 20:07 |
| 20 | 05:23 | 06:43 | 12:48 | 17:05 | 19:07 | 20:08 |
| 21 | 05:21 | 06:42 | 12:48 | 17:06 | 19:08 | 20:09 |
| 22 | 05:19 | 06:40 | 12:47 | 17:07 | 19:09 | 20:11 |
| 23 | 05:18 | 06:38 | 12:47 | 17:08 | 19:10 | 20:12 |
| 24 | 05:16 | 06:37 | 12:47 | 17:09 | 19:11 | 20:13 |
| 25 | 05:14 | 06:35 | 12:47 | 17:09 | 19:12 | 20:14 |
| 26 | 05:12 | 06:33 | 12:46 | 17:10 | 19:13 | 20:15 |
| 27 | 05:10 | 06:32 | 12:46 | 17:11 | 19:14 | 20:16 |
| 28 | 05:09 | 06:30 | 12:46 | 17:11 | 19:15 | 20:18 |
| 29 | 05:07 | 06:29 | 12:45 | 17:12 | 19:17 | 20:19 |
| 30 | 05:05 | 06:27 | 12:45 | 17:13 | 19:18 | 20:20 |
| 31 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:19 | 20:21 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə)*:** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# SÜNİ İNTELLEKTİN YENİ MODELİ SÖZLÜ İŞARƏLƏRİ VİDEOYA ÇEVİRƏCƏK



Süni intellektin lideri "OpenAI" şirkəti "Sora" adlı yeni modeli təqdim edib. "Bu texnoloji yenilik şifahi açar sözlər əsasında "real" və "təxəyyüllü" 60 saniyəlik videolar yarada bilər", - deyə şirkətin açıqlamasında bildirilib.

CNN telekanalının saytının verdiyi xəbərə görə, şirkətin bir bloq yazısında "Sora"nın mətn təlimatlarından 60 saniyəyə qədər davam edən videolar yaratmağa qadir olduğu, çoxsaylı simvollar, xüsusi hərəkət növləri və ətraflı fon təfərrüatları ilə səhnələri təqdim etdiyi iddia olunub.

"OpenAI" şirkəti bildirib: "Model təkcə istifadəçinin sorğuda nə tələb etdiyini deyil, həm də bu əşya və hadisələrin fiziki dünyada necə mövcud olduğunu "anlayır".

Şirkət, həmçinin süni intellekt modellərini öyrətmək niyyətində olduğunu bildirib və əlavə edib ki, əsas məqsəd "insanlara real dünyada qarşılıqlı əlaqə tələb edən problemləri həll etməyə kömək etməkdir". Bu, generativ süni intellekt hərəkatını irəli aparmağa davam edən sözlü yazışma proqramı "ChatGPT"nin arxasındakı şirkətin ən son ixtirasıdır.

"OpenAI", eyni zamanda, yeni modelin "zəif tərəfləri" ilə bağlı iş prosesinin davam etdiyini, xüsusən məkan təfərrüatları - sol və sağı, səbəb və nəticəni qarışdırmaq kimi problemlərin həll edildiyini vurğulayıb.

Hələ ki, "OpenAI"nin səyləri təhlükəsizliklə bağlı problemlərin həllinə yönəlib. Şirkət ən son modelini sınaqdan keçirmək, dezinformasiya, nifrət dolu məzmun və qərəzlilik də daxil olmaqla, müxtəlif sahələr üzrə tənzimləyici yollar tapmaq üçün ekspertlər qrupu ilə işləməyi planlaşdırdığını bildirib. Bununla yanaşı, yanlış məlumatları aşkar etməyə kömək edəcək alətlər də hazırlanır.

## Yadigar söz

***Mark Tven***
*(amerikalı yazıçı)*

*Dua edərkən heç kəs yalan danışmır.*

Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*
Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894